Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

29-01
İYUN-İYUL
2019-cu il
№ 113 (4011)
Qiyməti
40 qəpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# GÜRCÜSTAN RUSİYA TURİSTLƏRİNİN TRANZİT DAŞINMASINDA ERMƏNİSTANDAN İMTİNA ETDİ VƏ BAKIYA «ƏL UZATDI»...

*Son Tiflis hadisələrində erməni barmağı ilə bağlı ciddi faktlar ortaya çıxıb*

■ səh. 8 ■

Qarabağ məsələsinin həllində ordu amili sürətlə ön plana keçir - Ermənistanın pozuculuğu üzündən...

■ səh. 9 ■

ABŞ-dan olan keçmiş həmsədr Kavano Qarabağ danışıqları formatını tam saxtalaşdırdı...

■ səh. 4 ■

KİVDF-nin Müşahidə Şurası 25 ictimai-siyasi qəzetə altı aylıq müddətə maliyyə yardımı ayırdı

■ səh. 3 ■

Azərbaycanın "cəbhədəki vəziyyətdən asılı olmayaraq danışıqlar davam etdirilməlidir" məntiqinə Ermənistan XİN gülməli əks-arqument çıxardı...

■ səh. 2 ■

Rusiya yazıçısı Kəlbəcərdə alban kilsəsini erməniləşdirən film çəkdi...

■ səh. 3 ■

Qondarma "ümumerməni idman oyunları" altında siyasi erməni oyununda iştirakdan imtina edən dövlətlərin sayı artır...

■ səh. 7 ■

Lombardların özbaşınalıqlarına son qoyulur

■ səh. 10 ■

Taksilərdə naviqatorların nasaz işləməsinin səbəbləri barədə maraqlı şayiələr dolaşır...

■ səh. 15 ■




■ səh. 6 ■

## Putinlə Tramp dünyanın taleyinin həll olunduğu sammitə gərgin gəlib zarafat edə-edə başladılar...



Ermənistan girov saxladığı mülki azərbaycanlıları qaytarmağa məcbur edildi - Dilqəmlə Şahbazın da yolu açılırmı?

■ səh. 4 ■

Radikal müxalifət fəallarının sosial şəbəkələr vasitəsilə topladıqları vəsaitin sonrakı aqibəti...

■ səh. 5 ■



Əli Kərimlinin pozucu qanunsuz aksiya çağırışlarına müxalifətin özündən də əks dirənişlər göstərildi...

■ səh. 5 ■

■ səh. 7 ■

İƏT-in Məkkə zirvəsinin məşhur qərarının mürəkkəbi hələ qurumayıb, Birləşmiş Əmirliklər Ermənistanla ticarəti 250 milyona çatdırıb...



■ səh. 6 ■

Rusiya-ABŞ-İsrail Suriya barədə razılaşdı, Türkiyə kənarda buraxılır(?)...



■ səh. 11 ■

Trampın dolları ucuzlaşdırması manata necə təsir edəcək...



■ səh. 12 ■

Son sosial islahatlar paketinin Azərbaycanda demoqrafik vəziyyətə təsir potensialı...



■ səh. 12 ■

Aqrar sahədə yeni subsidiyalar mexanizmi kənd təsərrüfatına nə verəcək...



## Ermənistanın girov saxladığı Dilqəm Əsgərov və Şahbaz Quliyevlə bağlı AŞPA-da maraqlı sənəd yayıldı

**AŞ PA-nın yay sessiyası çərçivəsində qurumdakı nümayəndə heyətimiz Ermənistan tərəfindən girov götürülmüş azərbaycanlı mülki şəxslərlə bağlı məsələyə həsr edilən "İki azərbaycanlı mülki şəxsin humanitar məsələsi: Dilqəm Əsgərov və Şahbaz Quliyev" adlı tədbir keçirilib.**




"Trend"in məlumatına görə, tədbirdə azərbaycanlı girovların acınacaqlı vəziyyətdə saxlanılması, həyatlarının təhlükədə olması, səhhətlərinin ağır olması ilə bağlı məlumatlar verilib. Bütün bunları nəzərə alaraq, tədbir iştirakçıları bu iki azərbaycanlı girovun azad edilməsi məqsədilə Avropa Şurasının Baş katibinə, Avropa Şurası Parlament Assambleyasına və qurumun İnsan Hüquqları üzrə Müvəkkilinə bəyanat ünvanlayıb. Bəyanat avropalı parlamentarilər tərəfindən imzalanıb və ünvanlandığı şəxslərə çatdırılıb. Qurumun internet səhifəsində yayılan bəyanatda azərbaycanlıların hansı şəraitdə girov götürüldükləri diqqətə çatdırılaraq, onların azad edilməsi üçün çağırışlar edilir. Bəyanatda deyilir: "2019-cu il iyulun 11-də Azərbaycan vətəndaşları Dilqəm Əsgərov və Şahbaz Quliyevin Azərbaycanın işğal olunmuş Kəlbəcər rayonu yaxınlığında qohumlarının qəbirlərini ziyarət edərkən girov götürülməsinin beş ili tamam olacaq. Onlar Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində doğma torpaqlarından zorla didərgin salınmış yüz minlərlə azərbaycanlı icmasını təmsil edirlər. Bu günə qədər onların azad edilməsi ilə bağlı bütün çağırışların rədd edilməsindən dərin narahatlıq duyuruq. Bildiririk ki, 2015-ci ildə onlarla bağlı İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə müraciət edilib. Cari il iyunun 25-də AŞ PA-da bu qurumdakı Azərbaycan nümayəndə heyətinin təşkil etdiyi tədbir zamanı bir daha xatırladıldı ki, Əsgərov və Quliyev həyatları üçün təhlükəli və ümidsiz vəziyyətdədirlər və bu vəziyyətə son qoyulması məqsədilə beynəlxalq ictimaiyyət onlara dair humanitar məsələ ilə bağlı qəti reaksiya göstərməlidir. Buna görə də təcili olaraq Avropa Şurasının Baş katibini, AŞ PA-nı və qurumun İnsan Hüquqları üzrə Müvəkkilini bu iki azərbaycanlı girovun pozulmuş hüquqlarını bərpa etmək üçün dərhal və qeyd-şərtsiz azad edilmələrini təmin etməyə çağırırıq. İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin onların azad edilməsi ilə bağlı qərarını səbirsizliklə gözləyirik".

## Vəkillər korrupsiyaya qarşı mübarizədə Baş Prokurorluğun mühüm tərəfdaşlarından birinə çevrildi

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi ilə Vəkillər Kollegiyası arasında Anlaşma Memorandumu imzalanıb.**

Vəkillər Kollegiyanın digər dövlət qurumları ilə qarşılıqlı əməkdaşlığının qurulması çərçivəsində iyunun 28-də Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında hər iki qurumun rəhbər vəzifəli şəxslərinin iştirakı ilə korrupsiya ilə mübarizə sahəsində qarşılıqlı əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.

Tədbiri giriş sözü ilə açan Baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev Vəkillər Kollegiyasının vəkillərin xidməti fəaliyyəti ilə əlaqədar onlara məlum olan korrupsiya hüquqpozmaları barədə məlumatlarının təxirə salınmadan prokurorluq orqanlarına verilməsinə dair razılığın memorandumа daxil edilməsini cinayətkarlığın bu təhlükəli təzahürünə qarşı mübarizədə önəmli töhfə olacağını qeyd edib.

Vəkillər Kollegiyasının sədri Anar Bağırov çıxış edərək bildirib ki, ölkəmizdə vəkillik sahəsində aparılan mütərəqqi islahatlar nəticəsində ölkədə vəkillərin sayı əhəmiyyətli dərədəcə artıb, hazırda Bakı və Azərbaycanın regionlarında 1500 nəfərdən çox vəkil xidməti fəaliyyət göstərir. Kollegiyanın öz işini müasir dövrün tələblərinə uyğun qurduğunu tədbir iştirakçılarının diqqətinə çatdıran A.Bağırov dövlətin vəkilliyin inkişafına böyük diqqət ayırdığını bildirib.

Belə ki, Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" 22.02.2018-ci il tarixli Sərəncamında Vəkillər Kollegiyasına fəaliyyətində şəffaflığın artırılması tövsiyə edilib.

Eyni zamanda, Anar Bağırov "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 03.04.2019-cu il tarixli Fərmanda Vəkillər Kollegiyasına verilmiş tövsiyələr çərçivəsində bu Memorandumun imzalanmasının, hər iki qurum arasında səmərəli əməkdaşlıq münasibətlərinin qurulmasının mühüm əhəmiyyət kəsb etdiyini xüsusi vurğulayıb. Qeyd olunub ki, əməkdaşlıq münasibətlərinin qurulmasının başlıca qayəsini vətəndaşlarımızın hüquq və azadlıqlarının səmərəli müdafiəsi təşkil edir ki, Memorandumun imzalanması son nəticədə məhz bu məqsədə xidmət edir.

# Prezident Yazıçılar Birliyi üzvlərinin yaradıcılıq şəraitinin yaxşılaşdırılmasına 3 milyon manat ayırdı...



**Prezident İlham Əliyev Azərbaycan Yazıçılar Birliyi üzvlərinin yaradıcılıq şəraitinin yaxşılaşdırılması tədbirləri haqqında sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, Yazıçılar Birliyinin Şüvəlandakı Səməd Vurğun adına Yaradıcılıq Evinin rekonstruksiyası və təmiri üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinə ilkin olaraq 3 milyon manat ayrılsın.

Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin edəcək.

# Azərbaycanın "cəbhədəki vəziyyətdən asılı olmayaraq danışıqlar davam etdirilməlidir" məntiqinə Ermənistan XİN gülməli əks-arqument çıxardı...

**Ermənistan xarici işlər naziri dünən mətbuat brifinqində "bir əllə danışıqlar aparıb, digər əllə atəş açmaq olmaz" deyərək, AR xarici işlər naziri Elmar Məmmədyarovun "bu günədək müzakirə olunan sənədlər üzrə danışıqlar aparanda cəbhədə heç də tam sakitlik hökm sürmürdü" fikrinə münasibət bildirib.**

Baki-xeber.com xəbər verir ki, bununla bağlı açıqlama verən Azərbaycan XİN-in mətbuat katibi Leyla Abdullayeva qeyd edib ki, xarici işlər naziri Elmar Məmmədyarov Vaşinqton görüşünün nəticələri ilə bağlı KİV nümayəndələrinin sualını cavablandırarkən bildirib ki, münaqişənin tərəfləri qismində Ermənistan və Azərbaycan istər Madrid prinsipləri, onların yenilənmiş variantı, istər Kazan prinsipləri və ya "Lavrov planı" adlandırılan sənəd olsun, bunlar üzrə danışıqlar apararkən də təmas xəttində gərginliklər olub.



"Bununla belə, substantiv dialoq davam etdirilirdi. Yəni danışıqlar prosesi cəbhə xəttindəki vəziyyətin girovuna çevrilməməlidir. Bunu anlamamaq və bu deyiləndən nəticə çıxarmamaq Ermənistan tərəfinin danışıqlar prosesinin irəli aparılmaması üçün bəhanələr axtarır fikrini bir daha təsdiq edir. Xatırladırıq ki, cəbhə xəttindəki gərginliyin səbəbi məhz Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərində qeyri-qanuni mövcudluğudur və bu gərginliyə son qoymaq üçün danışıqlar prosesi substantiv məsələlərin həlli üzrə irəli aparılmalıdır; bu qədər! Ermənistan tərəfinin məntiqi ilə Düşənbə görüşündən sonra əldə edilmiş qarşılıqlı razılıq əsasında cəbhə bölgəsindəki nisbi sakitlik dövründə biz danışıqlarda konkret nəticələr əldə etməli idik, lakin hər şey göz qabağındadır. Münaqişənin sülh yolu ilə həllində maraqlı olan tərəf konkret nəticəyə yönəlik danışıqlardan yayınmaq üçün bəhanə axtarmamalıdır, siyasi iradə və qətiyyət nümayiş etdirilməlidir. Ermənistan tərəfindən bizim və beynəlxalq ictimaiyyətin gözləntisi bundan ibarətdir" - L.Abdullayeva deyib.

# Əli Kərimli qanunsuz yürüş çağırışına görə polisə aparıldı

**Baş Prokurorluq və Daxili İşlər Nazirliyinin birgə məlumatına görə, iyunun 28-də AXCP sədri Əli Kərimli Binəqədi rayonu ərazisində yerləşən "Müsavat" Partiyasının qərargahının qarşısından qanunsuz yürüş keçirilməsi barədə sosial şəbəkələrdə yaydığı çağırışla əlaqədar Binəqədi Rayon Polis İdarəsinə dəvət edilib.**



Bakı Şəhər İcra Hakimiyyəti ilə razılaşdırılmamış ərazilərdə mitinq və qanunla müəyyən edilmiş qaydada təşkil edilməyən toplantının keçirilməsinə cəhdin "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə zidd olduğu onun nəzərinə çatdırılıb.

İctimai asayişin pozulmasına yönələn belə qanunsuz hərəkətlərin qarşısı bundan sonra da qanunvericiliklə müəyyən edilmiş qaydada alınmaqla, təşkilatçıların məsuliyyətə cəlb olunacaqları barədə "Prokurorluq haqqında" qanunun tələblərinə uyğun olaraq ona rəsmi xəbərdarlıq edilib və sərbəst buraxılıb.

**İyunun 28-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurasının növbəti iclası keçirilib.**

# KİVDF-nin Müşahidə Şurası 25 ictimai-siyasi qəzetə altı aylıq müddətə maliyyə yardımı ayırdı

Şuranın sədri Həsən Həsənov iclası giriş sözü ilə açaraq bildirib ki, gündəlikdə Fondun 2019-cu ilin II yarısı üzrə KİV layihələrinin maliyyələşdirilməsi ilə bağlı elan etdiyi müsabiqəyə təqdim edilmiş sənədlərin müzakirəsi məsələsi dayanır.

Məsələ ilə bağlı məlumat verən icraçı direktor Vüqar Səfərli bildirib ki, 2019-cu ilin ikinci yarısı üzrə KİV layihələrinin maliyyələşdirilməsi ilə bağlı elan edilmiş müsabiqə iyunun 4-dən 27-dək davam edib. "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"na əsasən 19 istiqamət üzrə keçirilmiş maliyyə yardımı müsabiqəsinə 26 ictimai-siyasi qəzetdən sənəd təqdim edilib.

V.Səfərli həmçinin bildirib ki, müsabiqəyə sənəd təqdim edən 25 ictimai-siyasi qəzet indiyə qədər də maliyyə yardımı müsabiqələrində iştirak edib və Fond tərəfindən maliyyələşdirilib. Müsabiqədə yeni iştirak edən "Nedelya" qəzetinin sənədlərində çatışmazlıqlar olduğundan, qəzetə maliyyə yardımının ayrılması məqsədəuyğun hesab edilmir.

İcraçı direktor onu da bildirib ki, 2019-cu ilin II rübündə olduğu kimi, ictimai-siyasi qəzetlərin 3 kateqoriyaya (gündəlik, günaşırı və həftəlik) bölünməsi və maliyyələşdirilməsi təklif edilir.

Sonra Müşahidə Şurasının üzvləri yayım və tirajla bağlı təqdim edilmiş sənədlər əsasında geniş müzakirələr aparıblar. Müzakirələr nəticəsində ictimai-siyasi qəzetlərin təklif olunan 3 kateqoriya üzrə maliyyələşdirilməsi məqsədəuyğun sayılıb.

Müşahidə Şurasının üzvləri bu yanaşmanı qəzetlərin mənafeyinə tamamilə cavab verən optimal yanaşma kimi dəyərləndiriblər. Şuranın sədri



Həsən Həsənov, sədr müavini İlqar Hüseynov, üzvlərdən Bəhruz Quliyev, Əvəz Rüstəmov və Ayaz Mirzəyev Fondun maliyyə yardımının ictimai-siyasi qəzetlərin maddi-texniki bazasının möhkəmləndirilməsi, jurnalistlərin sosial vəziyyətinin yaxşılaşdırılması baxımından əhəmiyyətini qeyd edib.

Müzakirələrin sonunda sənədləri tələb olunan şərtlərə cavab verən 25 ictimai-siyasi (gündəlik, günaşırı və həftəlik) qəzetin maliyyələşdirilməsi ilə bağlı qərar qəbul edilib.

**Ermənilərin işğal altında saxladıqları rayonlarımızdakı tarixi özününküləşdirmə, milli-mədəni irsimizi məhv etmək kimi hərəkətləri davam edir. Maraqlıdır ki, onlar bu prosesə kənardan da bəzi "ziyalıları" cəlb edirlər. Rusiyanın ermənipərəst şairlərindən biri olan Viktor Konoplyov Azərbaycanın 27 ildir işğal altında qalan Kəlbəcər rayonundakı Xudavəng məbədini erməni monastrı kimi təqdim edən yeni, "Fəth olunmaz Artsax" adlı film hazırlayıb.**

# Rusiya yazıçısı Kəlbəcərdə alban kilsəsini erməniləşdirən film çəkdi...



Bu haqda erməni portallarından biri məlumat yayıb.

Xatırladaq ki, Xudavəng monastır kompleksi qədim Azərbaycan məbəd kompleksidir. VI-VII əsrlərdə alban knyazı tərəfindən tikilib. XV əsrdə bu abidə Alban knyazlığının dini məbədi olub. Sonralar məbəd bir neçə dəfə təmir edilib, əlavələr olunub və nəhayət, alban hökmdarı Həsən Cəlal tərəfindən əsaslı bərpa edilib. Bəllidir ki, bu cür saxta təbliğatla ermənilər həmin məbədlərin guya qədim zamanlardan onlara məxsus olduğuna dair rəy formalaşdırmağa çalışırlar. Bu cür saxta prosesə Rusiya vətəndaşlarının qoşulması hansı nəticələrə səbəb ola bilər?

Apardığımız araşdırma nəticəsində müəyyən etdik ki, sözügedən məbəd Kəlbəcər rayonunun Vəng kəndi ərazisində yerləşir. Tərtər çayının sol sahilində yerləşən Xudavəng, ya da Dədəvəng kompleksi Azərbaycanın xristian memarlığının ən iri və ən gözəl abidələrindən biridir.

Əfsanəyə görə, Qafqazda ilk xristian missioneri olmuş apostol Faddey-Dədə bu kompleksdə dəfn olunub. Ona görə Xudavəng kompleksinin təməlinin IV əsrdə qoyulduğu ehtimal olunur.

Kompleksdə əsas inşaat işləri XIII əsrdə alban knyazı Vaxtanqın zamanında aparılıb. Monastır kompleksinin tərkibində indi iyirmidən çox tikili və tikili qalıqları var. Kompleksin baş kilsəsini 1214-cü ildə knyaz Vaxtanqın arvadı Arzu xatun tikdirib. Uca günbəzi və əzəmətli həcmi ilə bütün kompleksin dominantı olan Arzu xatun məbədi Qafqaz Albaniyasının xristian memarlığının şah əsərlərindəndir. Ehtimal edilir ki, kilsənin interyerindəki freskaları Arzu xatun və onun qızları işləmişlər.

Kilsənin qərb və şimal baş tağları daş üzərində incə oyma naxışlarla bəzədilib. Kompleksin əsas dini hissəsi plan və kompozisiyası ilə fərqlənən, bir-birinə bitişik 7 həcmdən ibarətdir.

Kompleksin əsas binası Böyük Həsən kilsəsidir. Dini binalardan cənubda isə, yamacda mülki tikililər, eləcə də saray, yaşayış və təsərrüfat binaları yerləşir. Kompleksə daxil olan binalar çoxəsrlik inşaat mədəniyyətini, orta əsr Azərbaycan xristian memarlığının müxtəlif tiplərini dolğun nümayiş etdirir. Xudavəng monastır kompleksində çoxlu inşaat kitabələri və yazılar qalıb. Onlarda göstərilən bir sıra adlar: Arzu xatun, Tursun, Seyti, Hasan, Avaq, Şəms, Altun, Ağbux, Qaragöz və s. bu abidəni ucaldanların etnik mənsubiyyətinin - türklüyünün dəqiq göstəricilərindən biri sayılmalıdır. Bu abidənin çoxsaylı oyma daş bəzəklərində Azərbaycanın müsəlman memarlığı ilə birbaşa bağlılıq da aydın hiss olunur.

Hazırda erməni işğalı altında olan alban Xudavəng monastır kompleksini erməni tədqiqatçıları erməni abidəsi kimi təqdim etməyə çalışırlar. Ermənilər 30 ilə yaxındır bu təbliğatı aparırlar. Onlar xaricdə göstərdikləri kinofilmlərdə çox ustalıqla islamın qəbulundan öncə bu ərazidə yaşamış xristian Azərbaycan türklərinin abidəsini erməni kilsəsi kimi təqdim edir və "ulu Artsax"ın maddi mədəniyyət abidəsinin türklər tərəfindən dağıdılması" haqqında dünya ictimaiyyətinə saxta tarixi məlumatlar çatdırırlar. Rus şairin "yaradıcılığından" da bu məqsədlə istifadə edirlər. Məlumdur ki, işğal altında olan ərazilərə Azərbaycan dövlətinin rəsmi icazəsi olmadan getmək qadağandır. Bu qadağaya məhəl qoymayanların adı XİN-in tərtib etdiyi "qara siyahı"ya salınır. Sonra onlarla bağlı Azərbaycanın qanunvericiliyinin tələbləri əsasında cinayət işi açılır, barələrində İnterpol xətti ilə axtarış verilir. Hətta başqa ölkənin vətəndaşı olan, Lapşın adlı bir bloger məhz belə əməllərinə görə gətirilib Azərbaycanda mühakimə də olunmuşdu. Rusiyalı şairlə də bağlı bu prosedur həyata keçirilməlidir.

**Çünki onun bu cür əməli vətəndaşı olduğu ölkə ilə Azərbaycanın münasibətlərinə pis təsir edir. Həmin adam, eyni zamanda, çəkdiyi filmlə işğalçı, terrorçulara dəstək verir. Həm də tarixin saxtalaşdırılmasında yaxından iştirak edir. Bu şəxsin adının XİN-in "qara siyahı"sına salınmasına tam əsas var. Əlaqədar qurumların məsələni ciddi nəzarətdə saxlaması lazımdır.**

***Məhəmmədəli QƏRİBLİ***

# Ermənistan girov saxladığı mülki azərbaycanlıları qaytarmağa məcbur edildi - Dilqəmlə Şahbazın da yolu açılırmı?

**Məlum olduğu kimi, iyunun 28-də Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) himayəsi altında keçirilən əməliyyat zamanı bir Azərbaycan və bir Ermənistan vətəndaşı geri qaytarılıb. Komitədən mətbuata verilən məlumata görə, təhvilvermə sərhəddə - Ermənistanın İcevan və Azərbaycanın Qazax şəhərləri arasındakı yolda baş tutub.**





***Rufiz Qonaqov:*** *"Qızıl Xaç Komitəsi tərəfindən bir vətəndaşımızın girovluqdan azad edilərək vətənə qaytarılması Dilqəm Əsgərov və Şahbaz Quliyevin..."*

Qeyd edək ki, Azərbaycan vətəndaşı bu il martın 16-da sərhəddən Ermənistana, Ermənistan vətəndaşı isə 2017-ci il iyunun 20-də sərhəddən Azərbaycana keçib.

Məlumatlara görə, BQXK saxlandığı dövr ərzində və eləcə də öz ölkələrinə təhvil verilməzdən əvvəl həmin şəxslərə mütəmadi olaraq baş çəkərək, onların saxlanma şəraitini və onlarla necə davranıldığını qiymətləndirib.

Xatırladaq ki, Qazax rayonunun Yuxarı Salahlı kənd sakini, 1986-cı il təvəllüdlü İbrahimov Elvin Arif oğlu cari il mart ayının 15-dən 16-na keçən gecə Qazax rayonunun Ermənistanın Noyemberyan rayonu ilə sərhəd xəttində yolu azaraq qarşı tərəfə keçib. E.İbrahimov sərhədi keçərkən Ermənistan hərbçiləri tərəfindən açılmış atəş nəticəsində yaralanıb. Aidiyyəti beynəlxalq təşkilatlar E.İbrahimovun yaralanması və Ermənistan hərbçiləri tərəfindən saxlanması faktını təsdiq edərək həyatı üçün təhlükənin olmadığını bildiriblər.

Erməni girovluğunda olan Azərbaycan vətəndaşının geri qaytarılması hazırda erməni girovluğunda olan azərbaycanlı mülki şəxslər Dilqəm Əsgərov və Şahbaz Quliyevin geri qaytarılması üçün nə kimi perspektivlər açır?

**Politoloq Rufiz Qonaqov "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycan vətəndaşları Dilqəm Əsgərov və Şahbaz Quliyevin işğal olunmuş Kəlbəcər rayonunda qohumlarının qəbirlərini ziyarət edərkən girov götürülməsi bütün beynəlxalq konvesiyalara, qaydalara ziddir.** O qeyd etdi ki, onlar bir neçə ildir erməni girovluğunda dəhşətli işgəncələrə məruz qalırlar.

R.Qonaqov hesab edir ki Beynəlxalq Qızıl Xaç Komitəsinin azərbaycanlı girovu erməni əsarətindən azad edərək vətənə qaytarması müsbət haldır. Politoloq hesab edir ki, bu amil Şahbaz Quliyev və Dilqəm Əsgərovun da girovluqdan azad ediləcəyinə ümid bəsləməyə əsas verir. "İstənilən halda, dinc vətəndaşların həbs olunması, eyni zamanda, əsir və girov götürülməsi beynəlxalq hüquq qaydalarına, beynəlxalq konvensiyalara, eləcə də Beynəlxalq Qızıl Xaç Komitəsinin qaydalarına görə yolverilməzdir. Əlbəttə, bir vətəndaşımızın komitə tərəfindən geri qaytarılması onu deməyə əsas verir ki, əslində, müharibəni aparan hərbçilərdir və işğalçı tərəf də Ermənistandır, Azərbaycan öz torpaqlarını qoruyur. Dinc vətəndaşların öz dədə-baba yurdlarına gedərkən girov və əsir götürülməsi, öldürülməsi, itkin düşməsi beynəlxalq təşkilatlar tərəfindən pislənilməlidir. ATƏT, BMT və digər beynəlxalq qurumlar bu fakta kəskin reaksiya verməlidirlər. Çox təəssüflər olsun ki, BMT-nin münaqişənin həlli ilə bağlı qəbul etdiyi 4 qətnamə icra olunmur. Acınacaqlı haldır ki, dünyada hələ də ikili standartlar var, beynəlxalq hüquq işləmir. Əgər işləsəydi və ikili standartlar olmasaydı, Azərbaycan torpaqları çoxdan işğaldan azad edilərdi. Ümumiyyətlə, Qızıl Xaç Komitəsi tərəfindən bir vətəndaşımızın girovluqdan azad edilərək vətənə qaytarılması Dilqəm Əsgərov və Şahbaz Quliyevin, eləcə də erməni əsirliyində olan digər vətəndaşlarımızın da girovluqdan azad edilməsi üçün ümid yarada bilər. Biz buna görə komitəyə təşəkkür edirik, ancaq bir girovun azad edilməsi çox azdır. Çünki bizim erməni girovluğunda olan kifayət qədər vətəndaşımız var və onların da əsirlikdən, girovluqdan azad edilməsini gözləyirik".

*"Bizim erməni girovluğunda olan kifayət qədər vətəndaşımız var və onların da əsirlikdən, girovluqdan azad edilməsini gözləyirik"*

R.Qonaqov, həmçinin, qeyd etdi ki, istənilən halda, Azərbaycan qısa zamanda öz torpaqlarını geri qaytarmaq əzmindədir, Azərbaycan xalqı və dövləti bununla bağlı prinsipial mövqe ortaya qoyub. Onun sözlərinə görə, erməni əsirliyində, girovluğunda olan vətəndaşlarımızın azad olunması üçün Azərbaycan beynəlxalq qurumlardan, o cümlədən, Qızıl Xaç Komitəsindən dəstək gözləyir.

***İradə SARIYEVA***

# ABŞ-dan olan keçmiş həmsədr Kavano Qarabağ danışıqları formatını tam saxtalaşdırdı...

**ATƏT-in Minsk Qrupunun sabiq amerikalı həmsədri Kerri Kavano müəyyən fikirlər açıqlayıb. Ermənistan KİV-inin verdiyi məlumata görə amerikalı sabiq həmsədr qeyd edib ki, Qarabağ münaqişəsi tərəfləri, demək olar ki, eyni sənədi müxtəlif yollarla oxuyurlar: "Əks təqdirdə, bir tərəfin bir sənəd, qarşı tərəfin isə başqa bir sənəd təqdim etməsi inandırıcı deyil.**



***Elman Nəsirov:*** *"Həmin danışıqların heç birində qondarma qurumun qondarma başçısı iştirak etməyib"*

Bakı bildirib ki, danışıqlar formatını dəyişməz saxlamaq lazımdır. Buna baxmayaraq, mən hesab edirəm ki, Bakı daxili qayda ilə öz nümayəndə heyətinin tərkibini dəyişib və ora Qarabağın Azərbaycan icmasının mövcudluğunu əlavə edib. Mən bunu danışıqlar formatına dəyişikliyə hazırlıq istiqamətində atılan addım kimi dəyərləndirirəm".

Sabiq həmsədr qeyd edib ki, indiki format Köçəryanın dönəmində hazırlanıb: "Həmin vaxt o həm Ermənistanı, həm də Qarabağın erməni icmasını təmsil edirdi. Sarkisyanın dönəmində bu olduğu kimi qaldı. Ancaq hakimiyyətə gələn Nikol Paşinyan bildirir ki, o, Qarabağdakı ermənilərin mövqeyini təmsil edə bilməz".

Bununla Kerri Kavano demək istəyir ki, guya Azərbaycan tərəfi Nikol Paşinyanın Qarabağı danışıqlar prosesində tərəf kimi tanımaq təklifinə razıdır və bu istiqamətdə addımlar da atır. Bu iddianı nə dərəcədə əsaslı saymaq olar?

**Millət vəkili Elman Nəsirov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Kavanonun bu açıqlaması tamamilə yanlışdır, münasibətləri gərginləşdirməyə hesablanıb:** "Bu münaqişədə iki tərəf var: işğalçı Ermənistan və işğala məruz qalan Azərbaycan. Dağlıq Qarabağda formalaşdırılan qondarma rejimlə bağlı isə cənab Prezident dəqiq mövqeyini ifadə edib. Prezident deyib ki, bu gün Qarabağ ərazisində formalaşan həmin rejimin nümayəndələrinin 80 faizini Ermənistan vətəndaşları təşkil edir. Həmin qondarma rejim heç bir vaxt tərəf kimi danışıqlar prosesində iştirak edə bilməz. Bu günlərdə Prezident Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin münaqişənin mənbəyi və nizamlanma perspektivlərinə həsr edilən geniş bir məqaləsi çıxdı. Həmin məqalədə akademik faktlara söykənərək qeyd edir ki, hələ 1991-ci ilin dekabr ayının 21-də SSRİ-nin dağılmasını özündə əks etdirən protokolda bütün dövlətlər, həmçinin, Azərbaycan və Ermənistan da bir-birinin ərazi bütövlüyünü tanıdıqlarını bəyan ediblər. Ermənistan öz imzası ilə Azərbaycanın ərazi bütövlüyünü tanıyıb. Burada Dağlıq Qarabağdan müstəqil tərəf kimi söhbət belə gedə bilməz. Həm Köçəryan, həm Sarkisyan və ondan əvvəlki Petrosyan dönəmində də bu münaqişə Ermənistan-Azərbaycan konflikti kimi tanınıb. 1988-1991-ci illərə kimi bunun xarakteri daxili münaqişə olub. Çünki həmin vaxta kimi biz eyni dövlətin tərkibində yaşamışıq. 1992-ci ildə Minsk Qrupu yaradılandan sonra bu, beynəlxalq münaqişə kimi tanındı. Münaqişə tərəfləri də Ermənistanla Azərbaycandır. Burada heç bir halda Dağlıq Qarabağın ayrıca tərəf olmasından söhbət gedə bilməz. Kavanonun bu yanaşması daban-dabana ziddir. 1999-cu ildən isə prezidentlər arasında danışıqların əsası qoyuldu. Həmin danışıqların heç birində qondarma qurumun qondarma başçısı iştirak etməyib. Kavano münaqişənin tarixinə bələd insandır. Axı niyə unudur ki, orada bir Azərbaycan icması da var? Bu icmalar bərabərhüquqludur.

*"Axı niyə unudur ki, orada bir Azərbaycan icması da var?"*

**Bu özünü 1994-cü ildə qəbul edilən Budapeşt sammitində də göstərib. Nə zamansa, danışıqlarda erməni icmasının iştirakı da məqbul sayılacaqsa, onda Azərbaycan icmasının da iştirakı təmin olunmalıdır. Qondarma rejimin tərəf kimi danışıqlarda iştirakı mümkünsüz olan məsələdir. Heç bir halda, Kavanonun yanaşması əsas kimi qəbul edilə bilməz".**

***Məhəmmədəli QƏRİBLİ***

# Əli Kərimlinin pozucu qanunsuz aksiya çağırışlarına müxalifətin özündən də əks dirənişlər göstərildi...

**AXCP sədri Əli Kərimlinin iyunun 28-də Müsavat Partiyasının qərargahı önündə polis tərəfindən saxlandığına və Binəqədi Rayon Polis İdarəsində xəbərdarlıq edildikdən sonra sərbəst buraxıldığına dair xəbər yayılıb. Qeyd edək ki, Ə.Kərimlinin Müsavat Partiyasının qərargahında keçirilən "həmrəylik marafonu"nda iştirak etdiyi bildirilir.**



*"O hər zaman ölkənin sabitliyini qoruyan polisləri provokasiyaya çəkir, təxribat törədir"*

## *Niyaməddin Orduxanlı: "Əli Kərimlinin məqsədi ölkədə siyasi sabitliyin pozulması və vətəndaş qarşıdurmasının baş verməsidir, ancaq o buna heç vaxt nail ola bilməyəcək"*

Mətbuatın yaydığı məlumata görə, Əli Kərimli ictimai asayişi kobud şəkildə pozan, qanunların tələblərinə riayət etməyən, polisə müqavimət göstərən və digər qanunazidd əməllər törədən şəxslərə kəsilmiş cərimələrin ödənilməsinə guya yardım göstərmək məqsədilə "həmrəylik marafonu" adı altında müxtəlif çağırışlar irəli sürüb və kampaniya təşkil edib.

**Ə.Kərimlinin həbsinə və sonra azadlığa buraxılmasına münasibət bildirən Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədr müavini Niyaməddin Orduxanlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Ə.Kərimlinin əsas məqsədi siyasi gündəmdə qalmaq olub və bu səbəbdən də bu kimi xuliqanlıq hərəkətləri törədib.** "Ə.Kərimli uzun müddətdir ölkədə siyasi sabitliyin pozulması üçün hər cür təxribata əl atır. Yəni istər dövlət tədbirləri olsun, istər ümummilli matəm mərasimləri olsun, o hər zaman təxribatlar törətməyə cəhd göstərir. O həm Xocalı soyqırımı qurbanlarının anım günündə, həm də 20 Yanvar şəhidlərinin xatirə tədbirlərində və s. bu cür əməllər törədib. Ə.Kərimli həmişə bilərəkdən təxribat törədərək polislə qarşıdurma yaradır. O bunu ölkəmizdə sabitliyin pozulmasına nail olmaq üçün edir. Bu onun məkrli siyasətidir və o bu siyasəti uzun illərdir davam etdirir, lakin istəyinə nail ola bilmir. O, xalqdan dəstək qazana bilmir. Bütövlükdə, Ə.Kərimli bütün baş vermiş hadisələrdə özünü şou-biznes nümayəndələri kimi aparıb. Əli Mirəliyev və digər şou-biznesçilər kimi özünü mətbuatın gündəmində saxlamaq üçün müxtəlif uydurmalar yayır. Ə.Kərimli siyasi gündəmdə olmaq üçün şou-biznesçiləri təqlid edir. O hər zaman ölkənin sabitliyini qoruyan polisləri provokasiyaya çəkir, təxribat törədir. Bu onun üçün adi haldır. İndi həbs edilməsini də siyasi şouya çevirəcək və bir neçə gün sosial şəbəkələrdə bunu əlində "arqumentə" çevirəcək ki, mənə qarşı belə bir hərəkət edilib. Ə.Kərimli "mənəm, mənəm" azarına tutulub, bu hadisə də onun növbəti şousundan biridir".

*"Bu hadisə də onun növbəti şousundan biridir"*

Ə.Kərimlinin xəbərdarlıq edildikdən sonra azadlığa buraxılmasını dövlət tərəfindən atılan humanist addım kimi dəyərləndirən N.Orduxanlının sözlərinə görə, ölkənin siyasi rəhbərliyində olan insanlar ağıllı adamlardır və onlar Ə.Kərimlinin bu kimi təxribatları məqsədli şəkildə törətdiyini bilirlər. "Onlar yaxşı bilirlər ki, Ə.Kərimli özünü siyasi gündəmdə saxlamaq üçün bu cür təxribatlar törədir. Ona görə də hər dəfə onun planlarını pozurlar və ona imkan vermirlər ki, cəfəng əməllərini həyata keçirsin. Təbii ki, Ə.Kərimli qanun pozuntusuna yol veribsə, mütləq cəzalandırılmalıdır. Hələ ki, ona humanistlik göstərib xəbərdarlıq etməklə və cərimələməklə azadlığa buraxırlar. Xatırlayırsınızsa, keçən dəfə Şəhidlər Xiyabanında törətmək istədiyi təxribatlarla bağlı onu cərimələmişdilər. Bu da qanuni cəza növüdür. Görünür, hüquq-mühafizə orqanları onun hələlik bu formada cəzalandırılmasını məqbul sayırlar. Ən əsası odur ki, ictimaiyyət Ə.Kərimlinin məkrli planlarından xəbər tutmalıdır. Polis məmurunu təxribata çəkməklə həbs olunmasına zəmin yaradır və bunu da məqsədli şəkildə edib. Sizin diqqətinizi 2018-ci ilin prezident seçkilərinə yönəltmək istəyirəm.

Onun seçki zamanı "Obyektiv" TV-də bir çıxışı var. O, canlı yayımda çıxış edərək "mən bilsəm ki, mənim həbsim on minlərin, yüz minlərin ayağa qalxmasına səbəb olacaq, kiçik xuliqanlıq edib həbsə girməyə hazıram" deyib. Yəni hüquq təhsilli bir adam açıq şəkildə canlı yayımda belə bir fikir işlədib.

Ola bilsin, veriliş canlı olduğu üçün, dediyinin fərqinə varmayıb, amma kiçik xuliqanlıq etməyə qadir olduğunu birbaşa deyib. Bu da ölkədə sabitliyi pozmaq cəhdi deyil, bəs nədir? Ə.Kərimlinin məqsədi ölkədə siyasi sabitliyin pozulması və vətəndaş qarşıdurmasının baş verməsidir, ancaq o buna heç vaxt nail ola bilməyəcək" - deyə N.Orduxanlı qeyd etdi.

***İradə SARIYEVA***

# Radikal müxalifət fəallarının sosial şəbəkələr vasitəsilə topladıqları vəsaitin sonrakı aqibəti...

**Son vaxtlar sosial şəbəkələrin imkanlarından müəyyən fırıldaqçı məqsədlərlə istifadə olunduğu danılmaz reallığa çevrilib. Biz daha çox müxtəlif şəxslərin əhalinin həssas duyğularından istifadə edərək, sosial şəbəkələr vasitəsilə pul topladıqlarına tez-tez rast gəlirik. Məsələn, bu yaxınlarda bir vətəndaşın uçuq evinin fonunda fotosu yayıldı.**



## *Yeganə Hacıyeva: "İnsanların heysiyyəti ilə oynayıb siyasət yürütmək doğru taktika deyil"*

Təşkil edilən kampaniyada qeyd edilirdi ki, şəxs həm də xəstədir, müalicəyə ehtiyacı var. Sonra məlum oldu ki, həmin fotoların Azərbaycana heç bir aidiyyəti yoxdur, mənzərə Türkiyədə çəkilib. Kampaniya ifşa olundu, ancaq pulu toplayan aradan çıxa bildi.

İndi də siyasi mövzulardan istifadə edərək müxalifətçilik adı ilə vəsait toplamaq dəbə minib. Son belə bir kampaniya "xeyriyyə marafonu" adı ilə start götürüb. Bildirilir ki, kampaniya vasitəsilə əldə olunan pullar guya kasıb müxalifətçilərin cərimələrinin ödənilməsinə sərf olunacaq. Lazım olan məbləğ isə 11 min manat göstərilir. Əslində, belə kampaniyanın şəffaflığı şübhə doğurduğu kimi, gerçək məqsədi də qaranlıq qalır. Tutaq ki, cərimələrin verilməsi üçün həqiqətən pul lazımdırsa, nə qədər pulun toplanacağı, onlardan nə qədərinin xərclənəcəyi, nə qədərinin isə qalacağı və yerdə qalan məbləğin gələcək taleyinin necə olacağı şübhə doğurur. Hamıya yaxşı bəllidir ki, radikal müxalifətə xaricdən qrant şəklində güclü maliyyə yardımları edilir. Onda isə niyə bu cür imkanlara sahib olanlar 11 min manatı öz aralarında yığmağa deyil, səs-küylü kampaniyaya start veriblər?

**Politoloq Yeganə Hacıyeva qəzetimizə bildirdi ki, hansısa kampaniyanın aparılması taktikasından başqa ölkələrdə də istifadə edirlər:** "Amma burada siyasi məqsəd az olur. Daha çox ehtiyacı olanlara, kimsəsizlərə yardımların edilməsi məqsədilə belə kampaniyaların aparıldığının şahidi oluruq. İndiki halda, biz sosial şəbəkələrin Azərbaycan seqmentində fərqli bir pul toplama metodunu görürük. Adını da qoyublar icazəsiz aksiyalarda cərimələnən şəxslərə yardım kampaniyası. Əvvəla partiyalar öz üzv və tərəfdarlarının qeydinə belə qalırsa, onda elə həmin pulu sakit şəkildə ödəyə bilərlər. Elə də böyük məbləğ deyil. Amma görünən budur ki, bundan siyasi məqsədlər üçün istifadə edirlər. Bu ad altında səs-küy yaradırlar. Əgər bu pulu verə bilməyəcəksə, niyə partiya həmin adamları icazəsiz aksiyada iştiraka təhrik edir?

Sonra sosial şəbəkədə dırnaqarası kampaniya başladıb mərhəməti insanlara əl açmağa başlayırlar. Adını da qoyurlar "xeyriyyə marafonu". Nəticədə həm gündəmdə qalırlar, həm də yaxşı pul qoparırlar. Biz bunu Əli Kərimli ətrafında yaradılan ajiotajda da gördük. Həmin kampaniyanın adı ilə qatıldıqları tədbirdə ictimai asayişi pozdular. Polis işə qarışanda "Əli Kərimli həbs edildi" xəbərini tirajladılar.

Qısa müddət sonra məlum oldu ki, Əli Kərimli azadlıqdadır. Görürsünüzmü, burada məqsəd pul toplamaq deyil. Virtual olaraq aparılan kampaniyada kimin nə qədər pul ödədiyi, nə qədər hara xərcləndiyi də qeyd olunmursa, bunun şəffaflığı ciddi şübhə doğurur. Əminəm ki, bəzi həssas insanlar ora pul da ödəyirlər. Hesab edirəm ki, insanların heysiyyəti ilə oynayıb siyasət yürütmək doğru taktika deyil".

***Məhəmmədəli QƏRİBLİ***

# Putinlə Tramp dünyanın taleyinin həll olunduğu sammitə gərgin gəlib zarafat edə-edə başladılar...

**Yaponiyanın Osaka şəhərində başlanan və dünyada G-20-lər adlı formatdan böyük gözləntilər var. Bu format 1999-cu ildə Berlində təsis olunub və 2008-ci ildən etibarən hər il liderlər səviyyəsində sammitlər keçirilir. Hətta bəzi illərdə yaranmış dünyəvi vəziyyətlərlə əlaqədar iki dəfə keçirildiyinə dair də faktlar var.**

Bu forumlarda adətən investisiya, iqtisadiyyat, təhlükəsizlik, terrorla mübarizə, qanunsuz miqrasiya, separatizm kimi məsələlər, mövcud konfliktli regionlar və ölkələr barədə müzakirə aparılır.

Budəfəki sammitdə əsas diqqət ABŞ və Rusiya prezidentlərinin görüşünə yönəlib. Məlumdur ki, bundan qabaq, 2018-ci ildəki Argentina zirvəsində Putinlə Trampın görüşü baş tutmamışdı. Baxmayaraq ki, ilkin razılıq var idi. Ukrayna dənizçilərinin Kerç boğazında Rusiya tərəfindən tutulması bu görüşü pozdu.

Bu sammitdə Rusiya-Britaniya münasibətlərinə dair hansısa yeniliklərin ola biləcəyi də diqqətlə izlənir. Ən maraqlı məqam sammit çərçivəsində ikitərəfli görüşlərdir. Artıq Tramp-Putin, Putin-Mey görüşləri olub. Putin-Tramp görüşü saatyarım davam edib. Məlumatlara görə, onlar dünyanın taleyinin iki dövlətin münasibətlərindən çox asılı olduğu barədə vahid mövqe ifadə ediblər, təhlükəsizlik problemləri ilə bağlı fəaliyyətlərin koordinasiya edilməsinin vacibliyini vurğulayıblar, 21-ci əsrdə silahlara yeni nəzarət mexanizmlərinin yaradılmasına Çinin də cəlb olunması barədə razılaşma əldə ediblər. Putin Trampı gələn il Moskvada İkinci Dünya Müharibəsində qələbənin 75 illiyinə dəvət edib və Tramp dəvəti məmnuniyyətlə qəbul edib. Ən maraqlısı odur ki, şəkil çəkdirmə mərasimində Putinlə Tramp yanaşı durmaq istəsələr də, protokol işçiləri buna imkan verməyib və hər kəs öz yerində dayanıb.

Sammitə qədər Putin Amerika ilə münasibətlərin gərgin olduğunu desə də, yaxınlaşmanın vacib olduğunu vurğulamışdı. Eynilə də Tramp həm Rusiya, həm də Çinlə razılığa gəlmək istəyində olduğunu demişdi. Ən maraqlı bəyanatı Tramp İranla bağlı səsləndirib. Deyib ki, İran məsələsində tələsmirik və vaxt problemi yoxdur. Analitiklərin qənaətincə, Tramp İranla məsələnin müharibəsiz həlli üçün




Rusiyanın rol oynaya biləcəyinə ümidlidir və əslində, istəyir ki, Rusiya Amerikaya hazırda gəlib dayandığı təhlükəli nöqtədən geri qayıtmaqda kömək etsin. Putin Britaniya ilə münasibətlərin də qaydaya düşəcəyinə ümidli olduğuna eyham vurub. Deyib ki, inanmıram Mey adi casus qalmaqalına görə iki ölkə arasında münasibətlərin dalana dirənməsi ilə razılaşsın.

Sammitdə Putinlə Trampın zarafatlaşması da nəzərdən qaçmayıb. Tramp jurnalistlərin "Rusiyanın Amerika seçkilərinə müdaxilə məsələsinə toxunacaqsınızmı" sualına dərhal yumorla üzünü Putinə tutaraq belə deyib: "Putin, seçkilərə müdaxilə etmə". Təbii ki, bunu gülərək deyib. Ümumiyyətlə, analitiklər Putin və Trampın yaxşı əhvalda olmasından belə nəticələr çıxarırlar ki, sammitdə razılaşmalara yaxın vəziyyət əldə etmək mümkün olacaq. Ancaq Putinlə Trampın Suriya, İraq, Ukrayna,Venesuela, "Şimal axını" kimi problemlər, habelə strateji hücum silahları-3 üzrə və orta mənzilli raketlər barədə müqavilə üzrə razılaşmaya gələ biləcəklərini bu gün söyləmək çətindir.

Sammitdə Dünya Ticarət Təşkilatında islahatlar, qlobal istiləşmə, ticarət, investisiya, bərpa olunan enerji və sair məsələlərin müzakirəsi də gözlənir. Sammitin 3 böyük panel, ikitərəfli görüşlər formatında keçirilməsi planlaşdırılıb və iki gün davam edəcək.

***baki-xeber.com***

# Rusiya-ABŞ-İsrail Suriya barədə razılaşdı, Türkiyə kənarda buraxılır (?)...

## *Fikrət Sadıqov: "Türkiyə elə oyunçu deyil ki, payını almadan sakit dursun və ya onu oyundan kənarda saxlasınlar"*

**Rusiya Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev, ABŞ Prezidentinin milli təhlükəsizlik üzrə köməkçisi Con Bolton və İsrail Milli Təhlükəsizlik Şurasının rəhbəri Meir Ben Şabbat Suriya ilə bağlı üçtərəfli danışıqlara yekun vurublar.**



Rusiya Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev Baş nazir Benyamin Netanyahu ilə görüşməzdən əvvəl verdiyi açıqlamada Rusiyanın İsrailin təhlükəsizliyinə xüsusi maraq göstərdiyini ifadə edib. Patruşev bildirib: "Biz İsrailin təhlükəsizliyini təmin etməyə xüsusi diqqət yetiririk. Çünki bu ölkədə 2 milyon soydaşımız yaşayır".

Patruşev açıqlamasında Netanyahu ilə danışıqlar əsnasında bu formata razılaşan Rusiya dövlət başçısı Vladimir Putinin təlimatı ilə İsraildə olduğunu söyləyib. Patruşev deyib: "Suriyadakı vəziyyəti həll etmək üçün bölgədə və Suriyada sülh şəraiti bərpa edilməlidir. Bu məqsədlərə çatmaq üçün Suriyada asayiş bərqərar olunmalı və orada qalan terrorçu qruplar məhv edilməlidir".

Patruşev qeyd edib ki, onlar Suriya məsələsi ilə bağlı tam razılığa gəliblər. Xüsusilə də İranın rolu ilə bağlı məsələnin də müzakirə edildiyi deyilir. Hətta bildirilir ki, İsrail və ABŞ İranla bağlı istəklərini Rusiya nümayəndəsinə çatdırıblar. Onlar bəyan ediblər ki, İran qoşunları Suriyanı tərk edəcəyi halda, Bəşər Əsədin hakimiyyətdə qalması ilə razılaşırlar.

Məlumdur ki, Suriya ilə bağlı məsələdə anti-ABŞ koalisiyası formalaşmışdı. Uzun müddət Rusiya-İran-Türkiyə vahid mövqedən çıxış edərək ABŞ və onun müttəfiqlərini dalana dirəyə bildi. Suriya ilə bağlı son danışıqlarda, demək olar ki, tərəflərin hamısı ilə ortaq nöqtəyə gəlinib, hətta İranın da mövqeyi nəzərə alınıb. Amma münaqişədə əsas aktor olan Türkiyə ilə bağlı hər hansı bir fikir və ya təklif səslənməyib. Türkiyənin çox önəmli olan Suriya prosesindən kənarda saxlanması nəyin əlaməti sayıla bilər?

**Politoloq Fikrət Sadıqov qəzetimizə bildirdi ki, Türkiyə həmin problemdə çox vacib oyunçudur: "Onun maraqlarını kənarda saxlamaq mümkün deyil.** Eləcə də problemin indiki həll masasına yatırılmasında Türkiyənin vacib əməyi və dayanıqlı mövqeyi olub. Bunu kimsə dana bilməz. Hadisələr birbaşa Türkiyənin sərhədində cərəyan edir. Türkiyənin maraqları orada tam təmin olunmasaydı, belə sakit qalmazdı. Türkiyə istəyirdi ki, sərhədlərini qorusun. Ora toplaşan və Türkiyənin daxilindəki PKK dəstələrinə kömək edən kürdlərdən ibarət silahlı qruplaşmaları məhv edə bildi. Bu istiqamətdə həm Qərb, həm də Rusiya Türkiyəni birmənalı olaraq dəstəklədi. Türkiyə Əsədin qalmasını istəmir. Ancaq digər tərəflər buna razılıq verirlərsə, deməli, Türkiyəyə də hansısa məsələdə güzəşt edilib. Danışıqlarda əldə olunan razılaşmaların heç də bütün detalları açıqlanmır. Artıq Suriyadakı vəziyyət lazımi məcraya salınıb. ABŞ və Rusiya birgə fəaliyyətlə İŞİD-i tam sıradan çıxardı. Bəşər Əsəd hökuməti hakimiyyətdə qala bilirsə, demək ki, Rusiya və İranın marağı təmin edilir. Bu cür detalların Türkiyə ilə razılaşdırılması mümkün deyil. Suriya son zamanların ən qlobal konfliktidir. Oradakı sakitlik və razılıq bütün oyunçuların marağının təmin olunması nəticəsində mümkündür. Bu da olub. Türkiyə elə oyunçu deyil ki, payını almadan sakit dursun və ya onu oyundan kənarda saxlasınlar. Sadəcə, tərəflər arasında keçirilən görüşün yekununa dair media üçün açıqlamada Türkiyə ilə bağlı danışmağa lüzum olmayıb".

***Məhəmmədəli QƏRİBLİ***

# İƏT-in Məkkə zirvəsinin məşhur qərarının mürəkkəbi hələ qurumayıb, Birləşmiş Əmirliklər Ermənistanla ticarəti 250 milyona çatdırıb...

**Birləşmiş Ərəb Əmirliklərinin Ermənistandakı fövqəladə və səlahiyyətli səfiri Məhəmməd əl Zaabi erməni mətbuatına verdiyi müsahibəsində bildirib ki, iki ölkə arasında ikitərəfli münasibətlər unikal səviyyədədir. O qeyd edib ki, son illər bu əlaqələrin bütün sahələrdə inkişafını görməkdəyik.**



***Məhəmməd Əsədullazadə:** "Ermənistanla BƏƏ arasında iqtisadi dövriyyənin durmadan artması sözügedən müsəlman ölkəsinin işğalçı dövlətə dəstəyindən irəli gəlir"*

Səfir iki ölkə arasında ticarət əlaqələrinin artmasına dair bir sıra statistik rəqəmlər səsləndirib: "Ermənistanda BƏƏ-nin səfirliyi açılandan sonra müxtəlif sahələrdə, xüsusən də iqtisadiyyatda aktivləşmə hiss olunur. Bunu ticarət dövriyyəsinin göstəriciləri də təsdiq edir. Səfirliyin açılışından əvvəl, yəni 2014-cü ildə iki ölkə arasında ticarət dövriyyəsi cəmi 80 milyon dollar idisə, 2017-ci ildə bu rəqəm 250 milyon dollara çatıb".

O da məlum olub ki, iki ölkə arasında kənd təsərrüfatı sahəsində ciddi əməkdaşlıq mövcuddur. Tərəflər bu sahədə əlaqələrin daha da inkişafında qərarlıdırlar.

Bəzi ərəb ölkələri ilə Ermənistan arasında belə sıx yaxınlaşma anlaşılan deyil. Məsələ ondadır ki, BƏƏ İslam Əməkdaşlıq Təşkilatında təmsil olunsa da, bu qurumun qərarlarına əməl etmir. Bu il mayın 31-də Səudiyyə Ərəbistanı Krallığının Məkkə şəhərində İƏT dövlət və hökumət başçılarının 14-cü Zirvə toplantısı keçirilib. Toplantı nəticəsində yekun kommünike sənədi qəbul edilib. Yekun sənəddə Qarabağla bağlı bir sıra maraqlı məqamlar yer alıb. Ən maraqlı məqam ondan ibarətdir ki, sənəddə işğala xidmət edəcək hər hansı fəaliyyətin qanunvericiliklə qarşısının alınması tələbi öz əksini tapıb. İƏT-ə üzv ölkələrdən effektiv tədbirlərin həyata keçirilməsi, o cümlədən, işğalçıya öz ərazilərindən və ya əraziləri vasitəsilə silah ötürülməsinin, fiziki və hüquqi şəxslərin Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı hər hansı fəaliyyətinin və işğalın saxlanmasına xidmət edəcək hər hansı fəaliyyətin milli qanunvericilikləri vasitəsilə qarşısının alınması tələb olunur.

Göründüyü kimi, BƏƏ-nin Ermənistanla sıxlaşan əlaqələri İƏT toplantısında qəbul olunan qərarların əksinədir. Faktiki olaraq BƏƏ bu qərarları nəzərə almır.

O baxımdan, yaranan belə xoşagəlməz vəziyyəti ekspertlər necə dəyərləndirirlər?

**Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən politoloq Məhəmməd Əsədullazadənin sözlərinə görə, Ermənistanla müsəlman ölkələri arasında siyasi və iqtisadi əməkdaşlıq predmetləri əsasən İƏT-ın ötən ay qəbul etdiyi Qarabağla bağlı qətnaməsinə əsaslanmalıdır:** "Təəssüflər olsun ki, BƏƏ ilə Ermənistan arasında əlaqələrin genişlənməsi bu qərarları pozur. Hesab edirəm ki, rəsmi Bakı bu istiqamətdə işlər aparmalı və müsəlman ölkələrinin Ermənistana qarşı siyasi, iqtisadi sanksiyalar tətbiq etməsinə çalışmalıdır. Ermənistanla BƏƏ arasında iqtisadi dövriyyənin durmadan artması sözügedən müsəlman ölkəsinin işğalçı dövlətə dəstəyindən irəli gəlir. Qeyd edim ki, Ərəb Əmirliklərində erməni lobbisi bu istiqamətdə geniş iş aparır. Fikrimcə, rəsmi Bakı bununla əlaqədar BƏƏ ilə diplomatik kanallarla danışıqlar aparmalıdır. İƏT-in qəbul etdiyi qərarlar onlara xatırladılmalıdır. Müsəlman ölkələrində birliyin olmaması səbəbindən, təşkilat çərçivəsində yekdilliklə qəbul edilən qərarlara hörmətlə yanaşmırlar. Ona görə də ərəb dövlətləri bu gün işğal və xaosla üz-üzədirlər. BƏƏ-də Azərbaycan səfirliyi kifayət qədər bu işlərin qarşısını alır. Orada Azərbaycanın təbliği yüksək səviyyədə həll edilir. Görünür, Ermənistanda qadın bazarlığı ərəb şeyxlərini bu ölkəyə cəlb edir.

*"Görünür, Ermənistanda qadın bazarlığı ərəb şeyxlərini bu ölkəyə cəlb edir"*

BƏƏ-nin bu siyasəti müvəqqəti olacaq və tezliklə qazanc əldə etmədən buradan uzaqlaşacaqlar. Diqqət etmək lazımdır ki, Ermənistan BƏƏ-ni işğal olunmuş ərazilərimizə investiya qoymağa cəlb etməsin. Rəsmi Bakı buna diqqət etməli və tez bir zamanda bunun qarşısı alınmalıdır. Azərbaycanın Körfəz ölkələri ilə əməkdaşlığı genişlənməlidir. Səudiyyə Ərəbistanı vasitəsilə BƏƏ-nin Ermənistanla iqtisadi əlaqələrinin qarşısı alınmalıdır".

***Vidadi ORDAHALLI***

# Qondarma "ümumerməni idman oyunları" altında siyasi erməni oyununda iştirakdan imtina edən dövlətlərin sayı artır...

**İran, Türkiyə və Gürcüstan Azərbaycanın işğal altında olan Qarabağ ərazisində keçirilən "erməni oyunları"na nümayəndə heyəti göndərməkdən imtina ediblər. Bu məlumatı Ermənistanın məşhur "Jamanak" qəzeti yayıb.**



***Akif Nağı:** "Elə etməliyik ki, Qarabağa bir nəfər də getməsin və düşmənin oyunu alınmasın"*

Qəzet bildirib ki, artıq İran da bundan imtina edib: "İran nümayəndə heyəti də "erməni oyunları"nda iştirak etməyəcək. Məsələ odur ki, oyunlar Qarabağda baş tutacaq və İran hakimiyyəti bunun üçün Azərbaycanla münasibətləri pozmaq istəmir. Hazırda bəllidir ki, Gürcüstan və Türkiyədən olan erməni nümayəndə heyətləri də oyunlarda iştirakdan imtina ediblər".

Qəzet, həmçinin, bu ölkələrdəki erməni icmalarının Ermənistan hökumətinə müraciət edərək, onların bu tədbirlərdə nümayəndələrinin iştirakının təmin olunmasını xahiş etdiklərini vurğulayıb.

Qeyd edək ki, Ermənistan və erməni diasporu tərəfindən 2 ildən bir keçirilən sözügedən "idman yarışları"nda məqsəd dünyada yaşayan ermənləri idman vasitəsilə bir araya toplamaqdır. Budəfəki "yarışlar" Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ ərazisində təşkil olunacaq. Həmin "oyunlar"a 5 min erməninin qatılacağı gözlənir. Onların arasında ABŞ, Rusiya, Fransa, Livan, Misir, Avstraliyada yaşayan ermənilər var. "Ümumerməni idman oyunları" 6 avqustda işğal altındakı Xankəndidə start götürəcək.

Müsbət haldır ki, bir sıra qonşu ölkələr həmin "oyunlar"da iştirakdan imtina edirlər. Yaxşı olardı ki, digər ölkələr də bənzər addımlar atsınlar. O baxımdan bunu ekspertlər necə dəyərləndirirlər?

**Sözügedən məsələni şərh edən Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağının fikrincə, bəzi ölkələrin bundan imtina etməsi müsbət haldır:** "Bununla bağlı dəfələrlə xəbərdarlıq edilib, mövqe ortaya qoyulub. Hökumətə müraciət etmişik ki, qonşu ölkələrdəki səfirliklərə müvafiq tapşırıqlar verilsin. Erməni mediasının yazdığına görə, Gürcüstan öz vətəndaşlarına Qarabağa getməyi qadağan edib. Məlumata görə, İran tərəfi də buna bənzər addım atıb. Hesab edirəm ki, həm dövlət, həm də cəmiyyət səviyyəsində düzgün iş aparmaqla bu təxribatın qarşısını ala bilərik. Ancaq ermənilərin oyunu davam edir. Qeyd edim ki, bir müddət əvvəl Türkiyənin Hatay vilayətində, Musa dağının ətəyində "olimpiya oyunları" ilə bağlı Ermənistanla yanaşı, qondarma rejimin də "bayrağı" qaldırıldı, məşəl yandırıldı. Daha sonra həmin məşəli Şuşada, Pənahəli xan qalasında yandırdılar. Yəni düşmən tərəf təxribatçı oyunun keçirilməsində israrlı olduğunu nümayiş etdirdi. "Ümumerməni oyunları"nın keçirilməsinə cəhd edilməsi Azərbaycanın ərazi bütövlüyünə qarşı Ermənistan tərəfdən çox böyük bir təhdiddir. İndiyə kimi bu cür "oyunlar"ı Ermənistan ərazisində keçirirdilər. Budəfəki "oyun"u Dağlıq Qarabağda keçirməklə işğal olunmuş torpaqların Ermənistan ərazisi olduğunu göstərməyə çalışırlar. Ona görə də qətiyyən arxayın olmamalıyıq və çalışmalıyıq ki, qonşu ölkələr ermənilərin təxribatına uymasınlar. Elə etməliyik ki, Qarabağa bir nəfər də getməsin və düşmənin oyunu alınmasın. Paralel olaraq beynəlxalq idman mərkəzlərinə də müraciət etməliyik ki, ermənilərin idmandan siyasi məqsədlər üçün istifadə etmələrinə imkan verməsinlər".

*"Paralel olaraq beynəlxalq idman mərkəzlərinə də müraciət etməliyik ki, ermənilərin idmandan siyasi məqsədlər üçün istifadə etmələrinə imkan verməsinlər"*

***Vidadi ORDAHALLI***

# Gürcüstan Rusiya turistlərinin tranzit daşınmasında Ermənistandan imtina etdi və Bakıya "əl uzatdı"...

*Son Tiflis hadisələrində erməni barmağı ilə bağlı ciddi faktlar ortaya çıxıb*

**Rusiya və Gürcüstan arasında yaşanan son olaylar iki ölkənin münasibətlərində hələ də böyük gərginliklərin olacağını nümayiş etdirir. Bunun bütün regiona, o cümlədən Azərbaycana hansı formada təsir göstərəcəyi də müzakirə predmeti olaraq qalır. Artıq bir məqam bəllidir ki, məlum hadisələrdən sonra Gürcüstana üz tutan rus turistlərin müəyyən bir hissəsi Azərbaycana gələcək.**




Onların ölkəmizə səfəri zamanı xərcləyəcəyi məbləğ isə heç də az vəsait deyil.

Artıq məlumdur ki, Rusiyadan Gürcüstana turist axınının azalması ölkəyə xeyli ziyan vuracaq. Gürcüstan Milli Bankının yaydığı bəyanatda bildirilib ki, ilin sonuna bu ziyanın məbləği, təxminən, 200-300 milyon dollar olacaq: "Hazırda dəqiq proqnozlar vermək çətindir, lakin ilkin hesablamalara görə, Rusiyadan gələn turist axınında azalmanın bu ilin qalan dövrü ərzində iqtisadiyyata təsiri təqribən 200-300 milyon dollaradək olacaq".

Xatırladaq ki, iyunun 21-də prezident Vladimir Putin Rusiya aviaşirkətləri tərəfindən ölkə vətəndaşlarının Gürcüstana daşınmasına qadağa qoyan fərman imzalayıb. Sənəddə, həmçinin, turizm operatorları və agentlərinə Gürcüstana yollayış satışı və təşkilindən çəkinmək məsləhət görülür. Qeyd edək ki, Rusiya tərəfindən tətbiq olunmuş turizm embarqosunun fonunda Gürcüstanın milli valyutası öz dəyərini itirməkdədir. Gürcüstan Milli Bankı da təsdiq edir ki, baş verənlər xarici şok ödəmə balansı və buna müvafiq olaraq valyuta bazarına da mənfi təsir göstərəcək. Gürcüstanın baş naziri Mamuka Baxtadze də qeyd edir ki. son günlər Gürcüstanda baş verən hadisələr ölkə iqtisadiyyatına mənfi təsir göstərib. O, milli valyuta olan larinin dəyərdən düşməsini də son proseslərlə əlaqələndirib. Baxtadze problemlərin həlli üçün daha fəal işin aparılması və hökumət proqramının effektiv həyata keçirilməsinin vacib olduğunu qeyd edib. Amma belə görünür ki, Rusiyanın təzyiqləri fonunda gürcü iqtisadiyyatına müəyyən qədər zərər dəyəcək. Yaranmış durum üzündən isə, yuxarıda qeyd olunduğu kimi, Gürcüstana gedən rus turistlərin müəyyən hissəsinin Azərbaycana gəlişi gözlənir. Amma məsələnin mahiyyəti təkcə bununla yekunaşmır. Baş verənlərin maraq doğuran daha bir tərəfi Azərbaycan və Ermənistanın bu məsələdə mövqeyidir. Belə görünür ki, olaylar bir daha Ermənistanın Gürcüstana qarşı xəyanət mövqeyində olduğunu təsdiqlədyi halda, Azərbaycanla tamam fərqli mənzərə hökm sürür.

Bütün bunlar isə Gürcüstan Otellər və Restoranlar Assosiasiyasının rəhbəri Şalva Alaverdaşvilinin açıqlaması fonunda xüsusi diqqət cəlb edir. O, rusiyalı turistlərin ölkə otellərinə çatdırılması zamanı Bakı və Trabzon aeroportlarından istifadə ediləcəyini açıqlayıb. Bununla yanaşı, çarter reyslərinin həyata keçirilməsi də müzakirə olunur və artıq Ukrayna, Qazaxıstan kimi ölkələr buna razılıq verib. Rusiyalı politoloq, konfliktoloq Yevgeni Mixaylov bildirib ki, Gürcüstanın rusiyalı turistlərin daşınmasında İrəvanın xidmətlərindən imtina etməsi mübahisəli addımdır: "Gürcülər Rusiyadan turist axınını saxlamaq istəyir, lakin İrəvanın xidmətlərindən imtina etməklə, Moskva ilə əməkdaşlıq edənlərin onların işinə yaramadıqlarını göstərirlər". Ekspert deyib ki, Azərbaycan və Türkiyə də Moskva ilə tərəfdaşlıq əlaqələrini genişləndirir, amma Tiflis məhz İrəvandan imtina edir: "Fikrimcə, bunun çox sadə səbəbi var. İrəvana etimad yoxdur. Belə ki, ölkədə qeyri-sabit vəziyyət hökm sürür və Ermənistana bir daha Moskvaya görə gəlirləri itirdiyini xatırlatmaq pis olmaz. Hesab edirəm ki, Gürcüstan ermənilərinin Cavaxetiyaya xüsusi statusun verilməsi ilə bağlı çıxışları da gürcü hakimiyyətinin rusiyalı turistlərin İrəvandan daşınmaması ilə bağlı qərarına təsir göstərə bilər".

Mixaylovun sözlərinə görə, Azərbaycan və Türkiyəni rusiyalı turistlərin şantajı ilə ələ almaq olmaz: "Azərbaycan və Türkiyə iqtisadi və siyasi cəhətdən stabil ölkələrdir, gürcülərin rusiyalı turistlərin daşınması ilə bağlı qərarının onlara heç bir təsiri olmayacaq. Bundan əlavə, Tiflis bütün bu tranziti həm Bakı, həm də Trabzonla məhdudlaşdırmaqla risq edir. Belə ki, bu ölkələrdə turizm xidməti rusiyalılara nifrət bəsləyən Gürcüstandakından geri qalmır, bəlkə də daha yaxşıdır".

Gürcü politoloq Georgi Tsiklauri də qeyd edir ki, Tiflisin rusiyalı turistlərin Ermənistandan tranzitindən imtina etməsi təsadüfü deyil. O, "axar" portalına açıqlamasında Şalva Alaverdaşvilinin rusiyalı turistlərin ölkə otellərinə çatdırılması zamanı İrəvandan deyil, Bakı və Trabzon aeroportlarından istifadə edilləcəyini bildirməsini şərh edərkən vurğulayıb ki, Ermənistandan Gürcüstana "maydan ixrac edilir": "Təsadüfi deyil ki, KİV-də Gürcüstan parlamentinə hücum zamanı təkcə erməni və Ermənistan vətəndaşlarının iştirakı deyil, həmçinin Ermənistanın xüsusi xidmət orqanlarının da əli olduğu yazılıb". Tsiklauri xatırladıb ki, iyunun 24-də Tiflisdə avtomobil yürüşü etirazı zamanı aksiya iştirakçıları Daxili işlər naziri Georgi Qaxariyanın istefasını və Rustaveli prospektində saxlananların sərbəst buraxılmasını tələb edib: "Aksiyanın əsas təşkilatçısı erməni əsilli Serqo Qalstyan olub. O, həmçinin, iyunun 21-də erməni təxribatçılarının iştirakı ilə Gürcüstan parlamentinin ələ keçirilməsi cəhdi zamanı saxlananların həbsinə dair qərar verən məhkəmə hakimlərinin də işdən çıxarılmasını tələb edib. Onlardan biri Minas Minasyan Gürcüstan polisi tərəfindən saxlanıb və Ermənistan səfirliyi dərhal onun azad edilməsi üçün cəhdlərə başlayıb. Və əlbəttə ki, Gürcüstan polisi tərəfindən 15 sutkalıq həbs edilən Ermənistan vətəndaşı, Soros Fondunun nümayəndəsi, erməni liberalı və Paşinyanın tərəfdaşı Minas Minasyan "təsadüfən" əlində "Molotov kokteyli" ilə Gürcüstan parlamentinin yanında olub.

**Belə görünür ki, Ermənistan baş naziri Nikol Paşinyanın tərəfdaşları, Baqramyan adına taborun döyüşçüləri Abxaziyada parlamentin binasını ələ keçirdikləri kimi, Gürcüstan parlamentini də ələ keçirib, cəzasız qalacaqlarını düşünürlər".**

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Qarabağ məsələsinin həllində ordu amili sürətlə ön plana keçir - Ermənistanın pozuculuğu üzündən...

**Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində proseslərin hələ də qeyri-müəyyən məcrada inkişaf etdiyi bir vaxtda məsələnin güc müstəvisində çözümünü özündə ehtiva edən müxtəlif ssenarilər cızılmaqdadır. Hesab edilir ki, Ermənistanın mövqeyi üzündən danışıqlarda heç bir irəliləyişin olmaması savaşı tətikləyən başlıca faktora çevrilməkdədir.**

Rusiyanın "vladtime" saytı da bu fonda iddia edir ki, yaranmış durumda Dağlıq Qarabağda müharibəyə intensiv hazırlıq gedir.

Bildirilir ki, Qarabağ cəbhəsində vəziyyət kəskinləşir: "Azərbaycan tərəfi ermənilərin vaxtaşırı təxribat törətdiyini deyir, Ermənistan isə bunu təkzib edir. Dağlıq Qarabağ Azərbaycanın ərazisidir və Ermənistan tərəfindən zəbt olunub. Amma bu, ötən əsrin 90-cı illərinin əvvəllərində olub. O vaxtdan indiyə qədər çox şey dəyişib. Azərbaycan bütün parametrlər, o cümlədən hərbi güc baxımından Ermənistanı çox qabaqlayır. Azərbaycan ordusu bu gün daha çox inkişaf edib, nəinki Ermənistan ordusu. Azərbaycan ordusu T-90S müasir Rusiya tankları ilə silahlanıb. AN-29 və Su-25-lər Hərbi Hava Qüvvələrinin əsas bombardmançılarıdır. Quru qoşunları AK-74 M avtomatları ilə yanaşı, İsrail istehsalı olan TAR-21-lərlə də təchiz olunub. Ermənistan ordusu isə daha kasıb silahlanıb. Ermənistan ordusunun əsas döyüş tankı T-72-lərdir və bu, Azərbaycanın T-90S-ləri ilə müqayisədə köhnəlmiş texnikadır. Ermənistanda 229 tank var və bunun 200 ədədi T-72-dir. Azərbaycanda isə 962 tank var, onların da 100-dən çoxu T-90S-dir. Ermənistanın hərbi hava qüvvələrində cəmi 16 döyüş təyyarəsi var, onlar da köhnədir. Azərbaycan daha müasir təyyarələrə və hava hücumundan müdafiə sistemlərinə malikdir. Döyüş qabiliyyəti və şəxsi heyətlə təminat baxımından da Azərbaycan açıq fərqlə irəlidədir". O da vurğulanır ki, belə şəraitdə üstünlüklərindən istifadə etməyə hazırlaşan Azərbaycan işğal faktının uzanmasına səbr etmək niyyətində deyil. Elə rusiyalı politoloq Qriqori Trofimçuk da hadisələrin məhz bu səpkidə inkişafını istisna etmir. Onun sözlərinə görə, hadisələrin inkişafı gec-tez Qarabağda silahlı toqquşmaya gətirib çıxaracaq: "Paşinyan "sülh əvəzinə əraziləri qaytarmırıq" deyəndən sonra danışıqlar prosesi sual altına düşdü və Bakıda Ermənistanın baş nazirinin bütün bəyanatları neqativ qarşılanır.

Azərbaycan hesab edir ki, "aprel müharibəsi"ndən sonra başlanan sülh danışıqlarında ona yalan deyilib. Buna görə də Azərbaycan ordusu proseslərdən kənarda dayanmayacaq, xüsusilə ordu hesab edir ki, uzun müddət gözləyib".

Ümumiyyətlə, indi dünya miqyasında bu fikir hakimdir ki, Azərbaycan ordusu istənilən vaxt işğal altında olan torpaqları azad etmək əzmindədir. Artıq məlum aprel hadisələrində Azərbaycan əsgəri düşmənə layiq olduğu yeri göstərib. İndi də ordumuz arsenalında olan silah və döyüş texnikasını tətbiq etməklə, öz gücünü növbəti dəfə sübut etməyə hazırdır. Ekspertlər səviyyəsində isə belə vəziyyətdə Ermənistana açıq xəbərdarlıqlar edilir ki, Bakının səbrini çox sınamayaraq, Qarabağ məsələsinin dinc yolla tənzimlənməsinə getsin. Yaxın Şərq və Qafqaz ölkələri üzrə rus ekspert Stanislav Tarasov qeyd edir ki, Bakının əsas gözləntisi xarici işlər nazirlərinin Vaşinqtonda keçirilən görüşündən sonra Ermənistanın məsələnin dinc həlli üçün müvafiq addımlar atmasıdır: "Çünki bunlar olmayacağı təqdirdə Azərbaycan məsələnin həllinə ordusunu cəlb edəcək. Hələlik Bakı gözləmə mövqeyindədir və məsələnin sülh yolu ilə həllində də maraqlıdır. Vaşinqtonda erməni həmkarı ilə görüşən Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarov uzun illərdir qarşı tərəflə danışıqlar aparır, həmçinin gizli diplomatiya həyata keçirir. Tərəflərdən biri danışıqlar prosesinin detalları haqqında məlumat verdiyi halda, Mnatsakanyan Vaşinqton görüşündən sonra erməni jurnalistlərlə görüşərək uzun-uzadı danışsa da, faktiki olaraq heç bir şey haqqında məlumat verməyib. Lakin Məmmədyarov bəyan edib ki, münaqişə zonasında sülhməramlı qüvvələrin yerləşdirilməsi mümkün ola bilər. Bu yeni bir ideya deyil. Məlum olduğu kimi, "Madrid prinsipləri" belə bir addımı nəzərdə tutsa da, bunun necə baş verəcəyi sual doğurur. Azərbaycan bu məsələyə qəflətən qayıtmağa qərar verib və bu sənədin təşəbbüskarlığı Azərbaycan tərəfinə keçməkdədir. Bu durumda, istər-istəməz, bəlkə bəzi rayonların azad edilməsində söhbət gedə bilər. Ermənistan tərəfi bu rayonların strateji müdafiəni təmin etdiyini bildirsə də, ATƏT-in Minsk Qrupu bildirir ki, sülhməramlılar peyda olduqda dərinləşdirilmiş təhlükəsizliyə zərurət aradan qaldırılacaq. Amma faktdır ki, danışıqların səmərəsiz olduğunu dərk edərək, Azərbaycan tərəfi bir tərəfdən risqli, digər tərəfdən təşəbbüsü öz əlinə alma istiqamətində hərəkət edir. Azərbaycan tərəfinin atdığı addım çox güclü və məntiqlidir. Erməni tərəfi yalnız təkzib etməklə bu oyunu başa vura bilməz. Təklif edilən oyunu konkret oynamaq lazımdır.

Həmsədrlər Azərbaycan tərəfinin açıqlamalarını təkzib etmirsə, bu o deməkdir ki, Məmmədyarovla həmsədrlər bu oyunu eyni oyundur. Həmsədrlər belə bir bəyanatla çıxış etmirsə, bu o deməkdir ki, ATƏT-in Minsk Qrupu təkliflər verib və bu təkliflər mənzərəni dəyişir. Erməni diplomatiyasını qərar qəbul edilmə zərurəti olan bir vəziyyətə salır. Azərbaycan tərəfi səmimi çıxış edir, diplomatik texnologiyanı izah edir. İndi əsas məsələ erməni tərəfinin də buna qarşılıq verməsidir. Əks təqdirdə Azərbaycanın gücə əl atmasını, həmsədrlər də daxil olmaqla, bütün dünya qəbul etməli olacaq. Çünki buna qədər Azərbaycan məsələnin dinc həlli üçün bütün səyləri göstərib". Ekspert vurğulayır ki, əslində, Bakı hərb yoluna əl atacağı təqdirdə məsələni daha tez istədiyi çərçivədə həll etmək imkanına malikdir: "İlk növbədə o baxımdan ki, Azərbaycan hərbi cəhətdən Ermənistanı əhəmiyyətli dərəcədə üstələyir. Bunu Ermənistanda da yaxşı bilirlər".

Digər ekspertlərin də fikri budur ki, Qarabağ məsələsinin güc müstəvisində həlli erməni tərəfi üçün sarsıdıcı bir zərbəyə çevriləcək. Çünki Azərbaycan güc müstəvisində işğalçı ölkədən böyük fərqlə irəlidədir. Hətta iş o yerə çatıb ki, indi Ermənistanın ordusunu artıq Azərbaycanın Silahlı Qüvvələri ilə müqayisə etmək, ən azından, sadəlövhlük kimi qiymətləndirilir. Yaranmış vəziyyətdə Azərbaycan ordusu əsas etibarı ilə dünyanın ən inkişaf etmiş dövlətlərinin silahlı qüvvələri ilə müqayisə olunur. Hazırda Azərbaycan ordusunun ən son elmi nailiyyətlərin bəhrəsi olan müasir hərbi-texniki bazası və bu texnikanı işlətməyə, ən əsası, hərbi birləşmələrlə istənilən döyüşdən qalib çıxmağa qadir olan peşəkar zabit korpusu var. Yəni Azərbaycan Silahlı Qüvvələri şəxsi heyətin peşəkarlığı və müasir silahlarla da fərqlənməkdədir. Ermənistanda isə tamam fərqli mənzərə hökm sürməkdə, düşmən ordusunda xaos dərinləşməkdədir. Burada ordu sözün əsl mənasında əvvəlki kimi cinayətkarlıq yuvası sayılır. Elə bu günlərdə Ermənistan ordusunun daha bir hərbçisi ölüb. "Shamshyan.com" saytı əsgərin odlu silahdan açılan atəş nəticəsində ölümcül yara aldığını və orduda belə halların tez-tez təkrar olunduğunu yazır: "Ölkədə son hakimiyyət dəyişikliyi də ordudakı problemləri düzəltmədi. Cinayət xarakterli hallar yenə orduda kifayət qədərdir. Ermənistan silahlı qüvvələrinin bölmələrində nəinki əsgərlərin, hətta zabitlərin də tez-tez özünə qəsd etməsi nəticəsində ölməsi artıq adi hal alıb. Bu reallıq uzun illərdir dəyişmir". Bu arada bir maraqlı məqamı qeyd edək ki,

rəsmi İrəvan çox vaxt qarabağlı erməni hərbçilərin ölüm hallarını gizlətsə də, ermənistanlı hərbçilərin ölümlərini müxtəlif yollarla rəsmi olaraq ictimailəşdirməyə məcbur olur. Belə ki, işğalçı ölkənin sosial mediasında gizlədilən özünəqəsd, yaxud özünü öldürmə həddinə çatdırılma faktları haqqında ölən hərbi qulluqçuların yaxınları tərəfindən məlumatlar yayılır. Sosial şəbəkələrdə yer alan xəbərlərdən bəlli olur ki, son bir neçə gün ərzində hərbi xidmətdə üzləşdikləri haqsızlıq, təhqir və təzyiqlər səbəbindən Ermənistan ordusunun 4 hərbçisi özünə qəsd edib. Məlumatlara görə, kəşfiyyat bölüyünün hərbi qulluqçusu Ardak Lalayan, adı gizlədilən daha iki hərbçi də özünə qəsd edib. Qohumlarının verdiyi xəbərə görə, özünü öldürmək istəyən bir zabitin isə həyatını xilas edə biliblər və o indi hospitaldadır. Valideynləri xəsarət alan zabitə lazımi diqqət yetirilməsi qarşılığında hadisənin gizli saxlanmasına razı olublar. Özünü asmaqla həyatına qəsd edən və adı gizlədilən hərbi qulluqçu da əslən Qarabağdandır. Yuxarıda qeyd edilən faktlardan yalnız biri, Ardak Lalayanın təlim mərkəzində özünü öldürməsi xəbəri rəsmi İrəvan tərəfindən ictimailəşdirilib. Qalan faktların gizli saxlanmasına cəhdlər edilib. Erməni mediasında aktual şəkildə müzakirə olunan məqam isə budur ki, belə ordu ilə Qarabağ münaqişəsi ətrafında status-kvonu necə saxlamaq olar. Hesab edilir ki, Qarabağ münaqişəsinin həlli hərbi müstəviyə keçsə, Azərbaycan istəyinə çox asanlıqla nail olacaq. Hərbçiləri narahat edən başlıca məqam bu reallığın hələ də erməni siyasətçiləri tərəfindən tam dərk edilməməsidir. O da etiraf edilir ki, yeni hərbi əməliyyatlar başlansa, ölkə siyasətçiləri erməni ordusuna etimadın əbəs olmasına, 2016-cı ilin aprelində olduğu kimi, yenidən şahidlik etməli olacaq. Azərbaycan tərəfi də məsələnin bu istiqamətdə mümkün inkişafını nəzərə alıb, yeni hərbi əməliyyatlara intensiv hazırlıq görür. Çünki danışıqlar istənilən nəticəni verməyəcəyi təqdirdə Qarabağ məsələsinin güc müstəvisində həlli qaçılmaz olacaq.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Lombardların özbaşınalıqlarına son qoyulur

**Uzun müddətdən bəri ölkədə həlli uzanan əsas məsələlərdən biri də lombardlarla bağlı olub. Bu sahədə qanunvericilikdə olan boşluqlar lombardların bir sıra hallarda vətəndaşlara böyük ziyan vurması ilə müşayiət olunub. Məsələn, müəyyən hallarda lombardlar girov qoyulmuş əşyalarla birlikdə yoxa çıxıb.**

Eləcə də, əmanət qoyan şəxslərin aldadılmasına, mallarının geri qaytarılmamasına kimi bir çox digər neqativ halları da bura daxil etmək olar. İndinin özündə də lombardların əksəriyyəti girov qoyulmuş əşyaların qiymətləndirilməsində pozuntulara yol verib, onları bazar dəyərindən çox aşağı həddə qiymətləndirir. Eyni zamanda, lombardlarda faiz göstəricilərinin yüksək olması da heç kimə sirr deyil. Bütün bunlara isə "Lombardlar haqqında" qanunla son qoyulması gözlənir.

Qeyd edək ki, lombard sektorunda olan neqativ halların çoxluğunu nəzərə alaraq, sui-istifadə hallarının qarşısını almaq və səmərəliliyin artırılması, eyni zamanda lombard istehlakçılarının hüquqlarının qorunması üçün "Lombardlar haqqında" qanun layihəsi hazırlanıb. Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə məsələyə belə münasibət bildirir: "Ölkədə qeydiyyatdan keçmiş 700-dən artıq lombard fəaliyyəti ilə məşğul olan təsərrüfat subyekti müəyyən edilsə də, onların təxminən yarısı aktiv fəaliyyətini davam etdirir. Fəal lombard fəaliyyəti ilə məşğul olan subyektlərin 250-yə yaxını fiziki şəxsdir. 2018-ci ildə fəaliyyət göstərən lombardlardan büdcəyə daxil olan vergilərin ümumi məbləği cəmi 938 min manat olub. Bu isə lombardların fəaliyyətinin tənzimlənməsinin təmin edilməsi halında ödənişlərin artacağını deməyə əsas verir. Lombard fəaliyyəti subyektlərinin hüquq və vəzifələri, habelə bu sahədə mexanizmləri tənzimləyən normaların olmaması vətəndaşların hüquqlarının pozulmasına, əmlaklarının satılması zamanı pozuntulara və digər neqativ hallara yol verilməsinə səbəb olub".

Qeyd edək ki, "Lombardlar haqqında" qanun layihəsi Milli Məclisdə birinci oxunuşda qəbul edilib. Qanun lombardlar tərəfindən kreditlərin verilməsi və əşyaların saxlanmaya qəbul edilməsi, lombardlar tərəfindən həyata keçirilən fəaliyyətin nizamlanması və ona nəzarətlə bağlı münasibətləri tənzimləyir.

Bundan əlavə, lombard fəaliyyətinin həyata keçirilməsi üçün lisenziyaların verilməsi və ləğv edilməsi, filial açmaq üçün lombardlara icazə verilməsi və verilmiş icazələrin ləğv edilməsi maliyyə bazarlarına nəzarət orqanı tərəfindən həyata keçiriləcək. Əslində, bu qanunun qəbul edilməsi çoxdan gözlənirdi. Çünki yuxarıda qeyd olunduğu kimi, lombardların fəaliyyəti ilə bağlı ciddi çatışmazlıqlar hökm sürürdü. Lakin indi bunlara son qoyulması gözlənir. Bank və maliyyə məsələləri üzrə ekspert Əkrəm Həsənov da yeni qanunu vacib sayır: "Lombardlar özbaşınalıq edir. Azərbaycanda, demək olar ki, bütün lombardların fəaliyyəti qanunsuzdur. Faktiki olaraq, lombardlar qanunsuz bank fəaliyyəti ilə məşğuldur. Çünki lombardlar öz vəsaitləri ilə deyil, cəlb etdiyi vəsaitlər hesabına, yəni borc alaraq fəaliyyət göstərir. Bu isə artıq bank fəaliyyətidir. Lombardlar bu gün faktiki olaraq banklar və bank olmayan kredit təşkilatları ilə qeyri-sağlam rəqabət aparır. Bundan başqa, lombardlar çox yüksək faizlə kreditlər verir. Lombardlar müqavilə bağlayarkən vətəndaşların girov kimi qoyduqları qızıl əşyaları tam eyniləşdirmir. Bəzən vətəndaşa tamamilə başqa qızıl qaytarılır, vətəndaş da hansı qızıl qoyduğunu sübut edə bilmir. Bu sahədə xeyli problem mövcuddur". Onun sözlərinə görə, vətəndaş lombardın pulunu vaxtında qaytara bilməyəndə dərhal lombard girovu özünə götürür və vətəndaşa əmlakının batdığını deyir: "Halbuki, qanuna görə, lombard bunu hərracda satmalıdır. Burada da vətəndaşların hüquqları pozulur. Lombardların lisenziyasının olmaması, onlara nəzarətin olmaması problemlər yaradır. Bəzən vətəndaşlar lombarddan kredit götürür, girov qoyurlar, sonra isə həmin lombardın bağlandığını görürlər. Çünki nəzarət yoxdur. O baxımdan həmin sahədə özbaşınalıq var".



Ekspert dünya təcrübəsində lombardların fəaliyyətinin müxtəlif olduğunu deyir: "Bəzi hallarda onların fəaliyyəti lisenziyalaşdırılır və bu zaman bank nəzarəti orqanı lombardın fəaliyyətinə nəzarət edir. Bəzi hallarda isə onların fəaliyyəti lisenziyalaşdırılmır, amma bu zaman lombard öz vəsaiti hesabına kreditlər verir, yəni başqalarından borc ala bilməz. Bu gün bizim lombardların nizamnamə kapitalı 5-20 manat təşkil edir və aydındır ki, onlar borc alırlar. Bizim lombardlar bank kimi fəaliyyət göstərir, borc pul götürüb digərinə verir. Ümid edirəm ki, "Lombardlar haqqında" yeni qanun layihəsi onların fəaliyyətini tam tənzimləyəcək, bu sahədə nəzarət olacaq və özbaşınalığa son qoyulacaq".

Digər ekspertlər də bu mövqedədir ki, lombardların fəaliyyətinin hüquqi tənzimlənməsinə çoxdan ciddi ehtiyac var idi. Çünki bu olmadığı halda lombardlar tərəfindən vətəndaşların aldadılması risqi çox yüksəkdir. Hesab edilir ki, artıq yeni şəraitdə girovlar düzgün qiymətləndirilməli, girovların geri qaytarılması ilə bağlı zəmanət mexanizmi olmalıdır. Eyni zamanda lombardlar qeydiyyata alınmalı və daimi olaraq hesabatlarını açıqlamalıdır. İndiki də bütün bunlar qanunla nəzərdə tutulur. Qanunda istehlakçıların xeyrinə olan maddələrin sayı da kifayət qədərdir. Məsələn, qanuna əsasən, müştəri götürdüyü kredit məbləğinin maliyyə bazarlarına nəzarət orqanı tərəfindən müəyyən edilmiş hissəsini kreditin qaytarılmalı olduğu tarixdən tez qaytardığı təqdirdə müştərinin girov bileti yenilənir və kredit faizləri yeni azaldılmış məbləğdən hesablanır.

Halbuki, indiyə qədər tamam fərqli mənzərə hökm sürür və lombardlar əvvəldən müəyyən etdikləri həcmdə faizləri tuturdular.

O da qanunda qeyd olunur ki, müştəri lombardla bağlanmış kredit müqaviləsi üzrə öhdəliklərini tam icra etdikdə, lombard girov qoyulmuş əşyanı iki iş günündən gec olmayaraq müştəriyə qaytarmalıdır. Bu da müştərilərin lehinə olan mühüm dəyişikliylərdən biridir. Çünki bununla lombardlar girovların qaytarlıma müddətini artıq uzada bilməyəcək.

***Tahir TAĞIYEV***

**Dünya geosiyasətində baş verənlər bu gün qlobal iqtisadiyyata da əsaslı surətdə təsir göstərməkdədir. Xüsusən də ABŞ-ın bir çox ölkəyə qarşı iqtisadi təzyiq mexanizmlərini işə salması, milli valyutasını təsir vasitəsinə çevirməsi qlobal miqyasda dollarla bağlı yeni bir vəziyyət yaradır.**

# Trampın dolları ucuzlaşdırması manata necə təsir edəcək...

***Fikrət Yusifov:** "Dolların ucuzlaşdırılmasının manata birbaşa təsiri gözlənilmir"*



Bir çox dövlətin dollardan imtina prosesi getdikcə geniş vüsət alır. Artıq hadisələrin inkişaf axarı ABŞ-ın özündə də narahatlıq yaradır. Elə bu fonda yayılan məlumatlara əsasən, ABŞ dollarla bağlı yeni siyasətə start verməyə hazırlaşır. Bu siyasət dolları digər valyuatalar, o cümlədən, manat qarşısında ucuzlaşdırmağı özündə ehtiva edir.

ABŞ-ın ən böyük maliyyə qurumlarından olan "Bank of America" belə bir vaxtda məlumat yayıb ki, ABŞ Prezidenti Donald Tramp yaxın zamanda dolların devalvasiyası ilə bağlı qərar verəcək. Bankın analitikləri Xəzinə Nazirliyindən təlimat gələn kimi Nyu-York Mərkəzi Bankının dolları sataraq başqa valyutalar almağa başlayacağını və nəticədə dolların ucuzlaşacağını açıqlayıblar. ABŞ iqtisadiyyatı ötən il 2,9 faiz inkişaf edib, lakin ilin sonuna doğru ciddi şəkildə durğunluq yaranıb. Beynəlxalq Valyuta Fondunun proqnozlarına görə, qarşıdakı iki ildə ABŞ-ın ümumdaxili məhsulu azalacaq.

Bu durumda Tramp hesab edir ki, dollar ucuzlaşacaqsa, bu, xarici ölkələrin ABŞ məhsullarını almasını təşviq edəcək. Baş verənlər fonunda artıq indidən dolların məzənnəsinin dünyanın bir sıra valyutaları ilə müqayisədə aşağı düşdüyü qeydə alınır.Maraqlıdır, Tramp dolları ucuzlaşdırarsa, bunun manata təsir ehtimalı varmı?

**Məsələyə münasibət bildirən iqtisad elmləri doktoru Fikrət Yusifovun sözlərinə görə, dolların ucuzlaşması birbaşa manata təsir göstərməyəcək:** "Tramp prezident seçiləndən bu günə qədər təkidlə tələb etdiyi məsələlərdən biri də dolların bahalaşmasının qarşısını almaq və ucuz dollar siyasəti yeritməkdir. ABŞ Prezidentinin bunda məqsədi ondan ibarətdir ki, ixracı artırsın. Çünki bahalı dollar ixracatda problem yaradır və ixracın stimullaşdırılmasının qarşısını alır. Ona görə də iqtisadiyyatın sürətli inkişafını təmin etmək və daha çox məhsul ixracına nail olmaq üçün ucuz dollar siyasəti yeritməyi təklif edir. Son vaxtlara qədər Federal Ehtiyat Sistemi bu məsələdə Trampla anlaşa bilmirdi. Ancaq son dönəmlərdə bu yöndə anlaşma hardasa baş verib. Ona görə də biz yaxın vaxtlarda dolların ucuzlaşması ilə bağlı FES-in atacağı addımları görə biləcəyik. Dolların ucuzlaşdırılmasının manata birbaşa təsiri gözlənilmir.

*"Son vaxtlara qədər Federal Ehtiyat Sistemi bu məsələdə Trampla anlaşa bilmirdi"*

**Çünki manat sırf "üzən məzənnə" rejimində olsaydı, o zaman bunun təsiri olardı. Məlumdur ki, manat hələ tam "üzən məzənnə"yə keçməyib. Ona görə də lazım olan korrektivlərə ehtiyac yarananda bunu edə bilirik. Bu baxımdan baş verənlərin yaxın perspektivdə manata hansısa təsiri istisna edilir, narahatlığa elə bir əsas yoxdur".**

***Vidadi ORDAHALLI***

**Gündəlik həyatımızda tez-tez "qızıllarımı lombarda qoydum, pul götürdüm" və s. kimi ifadələrə rast gəlirik. Əksər hallarda vətəndaşlar lombardların fəaliyyətindən narazılıq edirlər. Bildirilir ki, lombardlar müqavilə bağlayarkən vətəndaşların girov kimi qoyduqları qızıl əşyaları tam eyniləşdirmirlər.**

# Lombardlar yeni qanunla işləyəcəklər - əhali nə əldə edəcək...

***Rəşad Həsənov:** "Lombardlarla bağlı hüquqi tənzimləmənin artırılmasına ehtiyac var idi"*



Bəzən vətəndaşa tamamilə başqa qızıl qaytarılır, vətəndaş da hansı qızıl qoyduğunu sübut edə bilmir. Bu sahədə xeyli problem mövcuddur. Bəzi hallarda isə lombardlar vətəndaşların qızıllarını alıb sonra ortadan yox olurlar. Vətəndaşlar qızıllarını geri almaq üçün həmin lombard sahibini tapa bilmirlər.

Vətəndaş lombardın pulunu vaxtında qaytara bilməyəndə isə dərhal lombard girovu özünə götürür və vətəndaşa əmlakının batdığını deyir. Ancaq qanuna görə, lombard bunu hərracda satmalıdır. Burada da vətəndaşların hüquqları pozulur.

Məlumat üçün bildirək ki, bu gün ölkədə qeydiyyatdan keçmiş 700-dən artıq lombard fəaliyyəti ilə məşğul olan təsərrüfat subyekti müəyyən edilsə də, onların təxminən yarısı bu işi davam etdirir. Aktiv fəaliyyətdə olan lombardların 250-yə yaxını fiziki şəxslərdir. Ötən il ərzində ölkədə fəaliyyət göstərən lombardlardan büdcəyə daxil olan vergilərin məbləği 938 min manat olub.

Ümumiyyətlə, lombard sahəsində yaşanan qanunsuzluqlara son qoymaq üçün Azərbaycanda "Lombardlar haqqında" yeni qanun layihəsi qəbul edilib. Qanun lombardlar tərəfindən kreditlərin verilməsi və əşyaların saxlanmaya qəbul edilməsi, habelə lombardların fəaliyyətinin nizamlanması və onlara nəzarətlə bağlı münasibətləri tənzimləyir.

Qeyd edək ki, bu qanunun qəbul edilməsi çoxdan gözlənilirdi. Çünki lombardların fəaliyyəti ilə bağlı cəmiyyətdə ciddi narazılıqlar yaranmışdı. Belə ki, yeni yaradılan lombardların bir müddət sonra insanların əmanətini də götürərək yoxa çıxmasından tutmuş, əmanət qoyan şəxslərin aldadılmasına, mallarının geri qaytarılmamasına kimi bir çox neqativ hal mövcud idi.

**Qanunun əhəmiyyəti barəsində danışan iqtisadçı-ekspert Rəşad Həsənov qeyd etdi ki, lombardların fəaliyyətinin hüquqi tənzimlənməsinə ciddi ehtiyac var idi:** "Xüsusilə 2015-ci ildən sonra maliyyə bazarlarında vəziyyət ciddi şəkildə çətinləşdi. Bank sektorunun defoltla üzüzə qalması və böhranlı dövrə daxil olması nəticəsində ölkədə maliyyə əlçatanlığı əhəmiyyətli səviyyədə aşağı düşdü. İnsanlarda isə nağd vəsaitlərə tələb daha da artırdı. Bu mənzərə fonunda lombardların fəaliyyəti sürətlə genişlənməyə başladı".

*"Lombardlar qeydiyyata alınmalı və daimi olaraq hesabatlarını açıqlamalıdırlar"*

İqtisadçının sözlərinə görə, onların fəaliyyətinin tənzimlənməsi üçün hüquqi boşluqlar var idi və lombardlar lisenziya ilə fəaliyyət göstərmirlər: "Lombardlar tərəfindən xüsusilə vətəndaşların aldadılması risqi çox yüksəkdir.

**Burada girovlar düzgün qiymətləndirilməli, girovların geri qaytarılması ilə bağlı zəmanət mexanizmi olmalıdır. Ona görə də bu sahədə hüquqi tənzimləmənin artırılmasına ehtiyac var idi. Lombardlar qeydiyyata alınmalı və daimi olaraq hesabatlarını açıqlamalıdırlar".**

***Günel CƏLİLOVA***

# Aqrar sahədə yeni subsidiyalar mexanizmi kənd təsərrüfatına nə verəcək...

**Xəbər verildiyi kimi, Prezident İlham Əliyev aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında fərman imzalayıb. Bu fərmanla təsdiq edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"na əsasən, bitkiçilik sahəsində subsidiyaların hesablanmasında istifadə olunan baza məbləği 200 manat müəyyən edilir.**

*"Kənd təsərrüfatının inkişafı üçün fermerlərə subsidiyalar verilməsinin təkmilləşdirilməsinə ehtiyac var"*

Qeyd edək ki, aqrar sahədə yeni subsidiya mexanizmi yaradılır.Yeni mexanizm subsidiyaların ödənilməsi ilə bağlı müxtəlif yenilikləri özündə ehtiva edir. İlk növbədə fermerlər subsidiya almaq üçün elektron kənd təsərrüfatı informasiya sistemində qeydiyyatdan keçməlidirlər.

Yeni qaydalarla subsidiyalarin tətbiqi ilə bağlı qərarları qəbul edən şura yaradılacaq. Subsidiya verilərkən baza əmsal tətbiq ediləcək. Subsidiyalar verilərkən hansı bitkinin hansı zonada yetişdirilməsi nəzərə alınacaq.

Ən maraqlı yeniliklərdən biri kooperativlərə görə veriləcək subsidiyalarla bağlıdır. Bu isə kiçik pay torpaqlarına malik fermerləri öz sahələrini birləşdirməyə sövq edəcək.

Heyvandarlıqla məşğul olanlar üçün nəzərdə tutulan subsidiya mexanizmlərində dəyişiklik ondan ibarətdir ki, həmin fermerlərdə ödəniş almaq üçün elektron sistemdə qeydiyyatdan keçməlidirlər. Həmçinin, keyfiyyətsiz toxum alan sahibkarlara subsidiya verilməməsi də fərmanda qeyd olunub.

**Aqrar sektorun inkişafı ilə bağlı imzalanan fərmanı şərh edən Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) dosenti Qadir Bayramlı "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, subsidiyaların verilməsi ilə bağlı bir sıra problemlər yaşanır:** "Subsidiyalar verilməzdən öncə kənd təsərrüfatında kiçik və orta sahibkarların mənfəəti nəzərə alınmalıdır. Çünki ən çox ehtiyacı olan və

***Qadir Bayramlı:*** *"Bu gün aqrar sektorun zəif sahələrindən biri keyfiyyətsiz toxum məsələsidir"*



maddi cəhətdən durumu zəif olanlar məhz bu şəxslərdir. İkincisi, subsidiyalar verilərkən şəffaflığa nəzarət olunmalıdır".

Həmsöhbətimiz onu da vurğuladı ki, bu gün aqrar sektorun zəif sahələrindən biri keyfiyyətsiz toxum məsələsidir. Sahibkarların nəinki keyfiyyətsiz toxum alması, ümumiyyətlə, keyfiyyəti olmayan toxumun əkilməsinin qarşısı alınmalıdır. Nəzərə almaq lazımdır ki, keyfiyyətsiz toxum əkiləndə məhsuldarlıq 30 faiz aşağı olur. Çalışmaq lazımdır ki, fermerlər keyfiyyətli toxumla təmin olunsunlar. Fermerlərin keyfiyyətli toxumla təmin olunması üçün dövlətin dəstəyi göstərilməlidir".

Ekspertin sözlərinə görə, kənd təsərrüfatının inkişafı üçün fermerlərə subsidiyalar verilməsinin təkmilləşdirilməsinə ehtiyac var. Bu sahədə yaşanan problemlər həll olunarsa, aqrar sektorda qeydə alınan problemlər öz həllini tapar.

***Günel CƏLİLOVA***

# Son sosial islahatlar paketinin Azərbaycanda demoqrafik vəziyyətə təsir potensialı...

**Son illər sosial təminatın daha da yaxşılaşdırılması üçün sistemli tədbirlər görülür. Bu il ərzində əməkhaqları, pensiyalar, əlilliyə, işsizliyə, ailə başçısının itirilməsinə görə verilən müavinətlər, ödənişlər faizlərlə deyil, dəfələrlə artıb.**



Hələ cari ilin əvvəlində Prezident İlham Əliyev bəyan etdi ki, 2019-cu il Azərbaycanın yeni tarixinə sosial tədbirlər dövrü kimi düşəcək. İlin ilk rübündə, demək olar, bütün sahələrdə əməkhaqları, eləcə də sosial müavinətlər və ödənişlər artırıldı. Ən əsası, ölkə üzrə minimum əməkhaqqı 180 manat müəyyən edildi ki, bu da 40 faiz artım demək idi. 40 faizlik artım, eyni zamanda, minimum pensiyanı əhatə etdi. Ölkə üzrə minimum pensiyanın məbləği 116 manatdan 160 manata yüksəldildi.

Dövlət başçısının "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" Sərəncamı çərçivəsində cari ilin aprel ayından 14 kateqoriya üzrə sosial müavinətlər, 7 kateqoriya üzrə Prezident təqaüdləri 100 faiz artırıldı. İndi həmin sərəncamdan, ümumilikdə, 576,8 min nəfər yararlanır.

***Məhərrəm Zülfüqarlı:*** *"Ölkədəki demoqrafik vəziyyətə və bununla bağlı göstəricilərə müsbət təsiri olacaq"*

Bu günlərdə yeni sosial paket elan edildi. Ölkə başçısı tərəfindən imzalanan 17 sərəncama əsasən, minimum əməkhaqqı, minimum pensiya artırıldı. Eyni zamanda, bir sıra qurumlarda çalışan şəxslərin aylıq məvacibləri artırıldı. Belə ki, Azərbaycanda minimum əməkhaqqının 180 manatdan 250 manata qaldırılmasına qərar verildi.

O da məlumdur ki, sosial təminatın yüksək səviyyədə olması ölkədəki demoqrafik göstəricilərə müsbət təsir edir. Düzdür, ümumən, Azərbaycanda əhali artımında problem yoxdur. Ancaq o da bir reallıqdır ki, son illər çoxuşaqlı ailələrin sayı xeyli azalıb. Yeni ailə quranlar əsasən 2 uşaqla kifayətlənirlər. Bəzi hallarda bunu əməkhaqlarının azlığı ilə əlaqələndirirlər. O baxımdan minimum əməkhaqqının, həmçinin, digər sahələrdə çalışan şəxslərin aylıq məvaciblərinin artırılması ölkədəki demoqrafik vəziyyətə, göstəricilərə nə kimi müsbət təsir göstərəcək?

**Məsələyə münasibət bildirən İctimai Problemlərin Tədqiqi Assosiasiyasının rəhbəri Məhərrəm Zülfüqarlının fikrincə, sosial paket ölkədəki demoqrafik göstəricilərə müsbət təsir göstərəcək:** "Mütləq bunun ölkədəki demoqrafik vəziyyətə və bununla bağlı göstəricilərə müsbət təsiri olacaq. Bu danılmaz faktdır. Məsələn, İkinci Dünya Müharibəsindən sonra keçmiş SSRİ-də bu cür hallar var idi. Əhali artımını stimullaşdırmaq üçün müxtəlif sosial xarakterli tədbirlər həyata keçirilirdi. Çoxuşaqlı ailələrin sayını artırmaq üçün müxtəlif imtiyazlar tətbiq edilirdi. On uşağı olana "Qəhrəman ana" medalı verilirdi. O statusta olan analar üçün müxtəlif güzəştlər var idi. Hesab edirəm ki, əhalinin gəlirləri artdıqca, gənc ailələr uşaqlarının sayının çox olmasında maraqlı olacaqlar.

*"Sosial təminat bu məsələdə mühüm rol oynayır"*

Sosial təminat bu məsələdə mühüm rol oynayır. Xüsusən də regionlarda yaşayan ailələr üçün sosial təminat mühüm əhəmiyyətə malikdir.

Hesab edirəm ki, ailələrə sosial yardımların artırılması dövlətin gücləndirilməsidir. Ailə dövlətin ilkin özəyidir. Ailə nə qədər güclü olarsa, dövlətimiz o qədər güclü olar. Ona görə də bu sahədə atılan addımları təqdir edirik".

***Vidadi ORDAHALLI***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az



# "Azərenerji" ASC-nin Reabilitasiya Proqramı və yeni hədəflər

**Azərbaycanın enerji ölkəsi kimi əhəmiyyəti getdikcə artır. Xüsusilə son illərdə Avrasiya məkanında baş verən bir sıra geosiyasi proseslər, enerji amilinin siyasi hadisələrə təsiri Avropa dövlətlərini yeni enerji mənbələrini təmin etməyə sövq etdi. Bu baxımdan regionun əsas neft ölkələrindən biri kimi Azərbaycana diqqətin atması təbii idi.**

Avropa gələcəkdə enerji təhlükəsizliyinin təmin edilməsində və alternativ mənbələrə çıxışda ölkəmizin əhəmiyyətini qiymətləndirməyə bilməzdi.

Təcavüzkar Ermənistan istisna olmaqla, demək olar ki, bütün dövlətlərlə qarşılıqlı əməkdaşlıq müstəvisində əlaqələr quran, balanslaşdırılmış və müstəqil xarici siyasət kursuna sadiq olan Azərbaycanla tərəfdaşlıq etmək hər zaman cəlbedicidir. Avropa dövlətlərinin alternativ enerji təminatçısı kimi üzünü ölkəmizə çevirməsi anlaşılandır. Azərbaycan həm də sabit və etibarlı imici ilə diqqət çəkir.

Danılmaz faktdır ki, Azərbaycan bu gün Avropanın ən etibarlı enerji təminatçısıdır. Bütün bunlar isə dövlət başçısının gərgin əməyi, uzaqgörən, məqsədyönlü siyasəti sayəsində reallaşıb. Prezident İlham Əliyevin bu sahəyə daimi diqqəti və yorulmaz fəaliyyəti sayəsində ölkənin elektroenergetika sistemi daha da inkişaf etdirilərək beynəlxalq standartlara uyğun yenidən qurulub. Bu sahədə beynəlxalq standartlara uyğun qanunvericilik bazası formalaşdırılıb ki, bu da ölkədə enerji sisteminin müasir tələblər səviyyəsində inkişafına təkan verir. Həyata keçirilən tədbirlər nəticəsində ölkədə energetikanın maddi-texniki bazası möhkəmləndirilib, xeyli sayda modul tipli elektrik stansiyası istifadəyə verilib, mövcud elektrik stansiyalarının modernləşdirilməsi prosesi geniş vüsət alıb. Bununla da əhalinin elektrik enerjisi ilə təmin olunmasında ciddi nailiyyətlər qazanılıb. Məlumdur ki, bu gün Azərbaycanın ən ucqar dağ kəndlərinə çəkilən elektrik xətlərinin hər bir evə nur paylaması deyilənlərin təsdiqidir. Bir sözlə, Prezident İlham Əliyevin reallaşdırdığı "İşıqlı Azərbaycan" layihəsi uğurla reallaşır.

## Enerji təchizatını gücləndirmək üçün yeni proqram qəbul olundu

Enerji istehsalı ilə yanaşı, onun ötürülməsində dayanıqlığın təmin edilməsi, etibarlığın artırılması önəmli məsələlərdən biridir. Məlumdur ki, 2018-ci ilin 3 iyul tarixində "Azərbaycan İstilik Elektrik Stansiyası" MMC-nin açıq paylayıcı qurğular stansiyasının transformatorunda və 6-cı enerji blokunda yanğınla nəticələnən partlayış nəticəsində respublikanın əksər ərazilərinə elektrik enerjisinin verilməsi müvəqqəti olaraq dayandı. Baş vermiş hadisədən sonra ölkə rəhbərliyinin iştirakı ilə müşavirə keçirildi. Müşavirədə ölkənin enerji təchizatının bir və ya iki stansiyadan asılılığının nə qədər yanlış və təhlükəli olduğu vurğulandı, enerji təminatında fasiləsizliyi təmin etmək üçün sistemli addımların atılmasına start verildi. Mövcud durumu müsbətə doğru dəyişmək, nöqsanları aradan qaldırmaq, ölkənin enerji təchizatına yeni güc qatmaq üçün atılan ən böyük addım isə Reabilitasiya Proqramının qəbulu oldu.

Reabilitasiya Proqramının qəbulu "Azərenerji" ASC-nin fəaliyyətində kəmiyyət artımını keyfiyyət artımı ilə əvəzləməyə, müsbətdən mükəmməlliyə doğru yön almağa imkan verdi. Bu dəyişikliyin necə, hansı şəkildə baş verdiyi anlamaq üçün sadəcə bir fakta nəzər salmaq kifayətdir. Reabilitasiya Proqramının qəbulundan 2019-cu ilin martına qədər, yəni cəmi 6 ay ərzində, sadəcə, yarımstansiyalar üzrə aparılan iş 249 MVA əlavə güc əldə etməyə imkan verdi. Mövcud və köhnəlmiş transformatorların yeni və daha güclü transformatorlarla əvəzlənməsi istiqamətində xüsusilə ciddi işlər həyata keçirildi. 110 kV-luq "Masazır" yarımstansiyasında 25 MVA transformator 40 MVA transformatorla, "Cənub" yarımstansiyasında 25 MVA transformator 40 MVA transformatorla, həmçinin, "135 saylı" yarımstansiyada 2 ədəd 40 MVA transformator 80 MVA transformatorlarla əvəz olundu. "Ələt" yarımstansiyasında 15 MVA transformatorun 25 MVA transformatorla, "Əhmədli" yarımstansiyasında 40 MVA transformatorun 80 MVA, 63 MVA transformatorun 80 MVA transformatorla, "Zabrat" yarımstansiyasında 63 və 40 MVA transformatorların 80 MVA transformatorla əvəz edilməsi də daha çox güc əldə etməyə imkan verdi.

## Reabilitasiya Proqramı çərçivəsində "Səngəçal" Elektrik Stansiyası üzrə itirilən güc bərpa edilib

"Azərenerji" ASC-nin prezidenti Baba Rzayevin sözlərinə görə, son illər Azərbaycanda energetika sahəsində çox mühüm layihələr icra olunub. Bu istiqamətdə həyata keçirilən işlər müsbət nəticəsini verməkdədir.

O qeyd edib ki, "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti Reabilitasiya Proqramı çərçivəsində digər elektrik stansiyalarında olduğu kimi, "Səngəçal" Elektrik Stansiyasında da "itirilmiş" gücün bərpa edilməsi istiqamətində işləri davam etdirir: "Qeyd edim ki, ötən ilin payızında qəbul edilən Peabilitasiya Proqramına qədər "Səngəçal" Elektrik Stansiyasında mövcud 18 aqreqatdan 4 ədədi ümumiyyətlə işləmirdi, qalan 14 aqreqat isə kəsirlə işləyirdi. Məhz həmin 14 aqreqatın mühərriklərində aparılan təmir işləri nəticəsində 30 MVt "itirilmiş" güc bərpa edilib. Eyni zamanda, işləməyən 4 aqreqatdan biri yenisi ilə əvəz edilib, digər aqreqatın isə ehtiyat hissələri gətirilərək sazlama işləri aparılıb və işə qoşulub. Həmin işləməyən 2 aqreqatın işə düşməsi nəticəsində əlavə 32 MVt "itirilmiş" güc bərpa edilib. Bununla da Reabilitasiya Proqramı çərçivisində "Səngəçal" Elektrik Stansiyası üzrə itirilmiş gücün bərpası 62 MVt-a çatdırılıb. Ümumilikdə isə ilin sonuna qədər "Səngəçal" ES-də aparılan işlər nəticəsində 90 meqavat "itirilmiş" güc bərpa olunacaq və bununla da, Bakı da daxil olmaqla, ölkənin elektrik təchizatının etibarlığı və dayanıqlığı üçün daha bir addım atılmış olacaq".

## Azərbaycan enerji idxal edən dövlətdən ixrac edən ölkəyə çevrilib

İqtisadçı-ekspert İlham Şabanın sözlərinə görə, SSRİ dağılandan sonra da Azərbaycan o dövrdəki enerji sisteminin bir hissəsi kimi çıxış edib: "Bu amili əsas götürən işğalçı Ermənistan istisna olmaqla, Azərbaycanla qonşu olan Rusiya, Gürcüstan və İranla enerji mübadiləsi daim davam etdirilib. Hazırda da bu mübadilə var. Hər bir ölkədə sutkanın müəyyən vaxtlarında enerjiyə olan tələbat artır. Belə olan halda, bu tələbat digər ölkələrlə qarşılıqlı anlaşma çərçivəsində alınan enerji hesabına ödənilir. O ki, qaldı Azərbaycanın enerji idxal edən dövlətdən ixrac edən ölkəyə çevrilməsinə, Gömrük Komitəsinin hesabatlarında enerji idxalı və ixracına dair dəqiq məlumatlar əks olunur. İxracat kommersiya müqavilələri vasitəsilə həyata keçirilməlidir. "Azərenerji"nin yaydığı son məlumatlardan görünür ki, qonşu dövlətlərdən fərqli olaraq, digər xarici ölkələrə elektrik enerjisi kommersiya müqavilələri əsasında veriləcək. Bu, artıq kommersiya ixracıdır, enerji mübadiləsi nəticəsində yaranan müsbət saldonun göstəricisi deyil. Belə bir ixraca may ayından etibarən başlamışıq. Ümumilikdə, müsbət məqamlardan biri də odur ki, istehsal olunan məhsul xarici bazara çıxarılır, ondan yararlanırıq. Əgər daxildə elektrik enerjisi istehlakçıya 7 qəpiyə satılırsa, ixrac edilən zamanı bundan baha satılır. Təbii ki, bu da "Azərenerji" üçün yaxşı gəlir mənbəyidir. Mən Gömrük Komitəsinin bəyan edilmiş ixrac məlumatlarına diqqət yetirdim və gördüm ki, Azərbaycan elektrik enerjisini, ortalama olaraq, ölkə daxilindəki pərakəndə satış qiymətləri ilə ixrac edir. Bu, kommersiya baxımından çox cəlbedici bir məqamdır. Çünki "Azərenerji" xaricdəki istehlakçılara daha baha qiymətlə öz məhsulunu satmaq imkanı qazanır. Azərbaycan üçün bu, iqtisadi əhəmiyyətli hadisə olmaqla bərabər, sadəcə, qonşu dövlətlərlə deyil, digər xarici ölkələrlə iqtisadi əməkdaşlığın yeni formasıdır".

## Reabilitasiya Proqramı çərçivəsində yarımstansiyalar yenidən qurulub

"Azərenerji" ASC-nin ictimaiyyətlə əlaqələr və media mərkəzinin rəhbəri Teymur Abdullayev bildirdi ki, "Azərenerji" ASC Bakı şəhəri və ətraf qəsəbələrin, o cümlədən regionların elektrik enerjisi təchizatını daha da yaxşılaşdırmaq məqsədilə elektrik stansiyaları ilə yanaşı, sistem əhəmiyyətli 220 və 110 kilovoltluq yarımstansiyalarda kompleks tikinti, yenidənqurma və bərpa işləri həyata keçirir: "Sistemtəşkiledici 220 kilovoltluq "Xırdalan", Badamdar qəsəbəsindəki "Müşfiq" yarımstansiyaları, o cümlədən, Bakı və ətraf qəsəbələrdə, həmçinin, rayonlarda 17 ədəd 110 kilovoltluq yarımstansiya tam yenidən qurulur. Artıq "Zabrat" və Sumqayıtdakı "Sulfanol" yarımstansiyalarında işlər başa çatıb. Digər yarımstansiyalarda aparılan yenidənqurma işləri isə yaxın aylarda yekunlaşacaq. Qeyd olunmalıdır ki, enerji sistemində yarımstansiyaların yenidən qurulması, o cümlədən, ifrat yüklənən transformatorların dəyişdirilərək gücünün çoxaldılması avadanlıqların qızması və qəzaların qarşısının alınması baxımından çox əhəmiyyətlidir. Eyni zamanda, qəza rejimində yükün bir yarımstansiyadan digər yarımstansiyanın üzərinə köçürülməsi, itkilərin aradan qaldırılması və ən əsası isə istehlakçıların daha keyfiyyətli elektrik enerjisi ilə təmin edilməsi üçün yarımstansiyaların yenidən qurulması olduqca vacibdir".

T.Abdullayevin sözlərinə görə, ötən ilin payızından etibarən həyata keçirilən Reabilitasiya Proqramı çərçivəsində yenidən qurulan yarımstansiyalardan əlavə, digər yarımstansiyaların transformatorlarının təmir edilməsi, dəyişdirilməsi və yenisi ilə əvəz edilməsi nəticəsində 250 meqavat amperdən çox güc artırılıb.

***Günel CƏLİLOVA***

**Yazı "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim edilir.**

**Doğma vətənimiz olan Azərbaycan hər bir vətəndaş üçün müqəddəs səcdəgah, pənah yeridir. Etiraf edilməlidir ki, dünyada ən böyük qəhrəmanlıqlar da məhz canımızdan artıq sevdiyimiz Azərbaycan naminə edilib. Elə bu səbəbdən də görkəmli şəxsiyyətlər, qorxmaz sərkərdələr, cəsur igidlərin çiynində yüksəlib bu Vətən.**

# Gənclərin vətənpərvər tərbiyə işində ilk çıxış nöqtəsi - ailə və orta məktəb...




Sirr deyil ki, ölkə vətəndaşlarının, xüsusən də gənclərin Vətən yolunda canlarından keçmələrində vətənpərvərlik tərbiyəsi xüsusi rol oynayır. Keçmiş döyüşçü Nofəl Abbasov deyir ki, "Vətən" məfhumu dövrlə, tarixi şəraitlə əlaqədar olaraq dəyişir, daha geniş məzmun kəsb edir. Dünyada hər şey kiçilər, amma Vətən kiçilməz. Hər şeydən keçmək olar, Vətəndən keçmək olmaz. Əslində Vətənlə bağlı hissləri, düşündüklərimizi ifadə etmək heç də asan deyil. Yəni, Vətən bizim hisslərimizdən, düşündüklərimizdən də qat-qat yüksəkdədir. Onu tərif edə biləcək söz isə məhəbbətlə yoğrulan ən qüdrətli kəlamdır. Onun sözlərinə görə, gənc nəslə vətənpərvərlik tərbiyəsinin aşılanması ailədən və məktəbdən başlanmalıdır: "Bir çoxları üçün təəccüblü görünən "uşağın tərbiyəsi ana bətnindən başlamalıdır" məsəli təsadüfən deyilməyib. Bəli, uşaq ilk olaraq göz açdığı ailədə tərbiyə alır. Düzgün tərbiyələndirməklə, yaxşı keyfiyyətləri öyrətməklə yanaşı, vətənə, dövlət atributlarına, milli-mənəvi dəyərlərimizə sadiqlik hissi uşağa kiçik yaşlarından, ilk növbədə ailədə aşılanmalıdır. Məşhur rus pedaqoqu Uşinski yazırdı: "Uşaqlara tərbiyə Vətən məhəbbətindən başlamalıdır. Mənsub olduğu vətəni, xalqı, onun dilini sevdirmək tərbiyənin başlanğıcıdır". N.Abbasov hesab edir ki, bu gün gənclərin vətənpərvərlik tərbiyəsindən danışdıqda, gənclərimizin vətənpərvərlik ruhunda yetişdirilməsindən söz açdıqda mütləq Vətən yolunda canından keçmiş igidlərin həyat yolundan söhbət açmaq lazımdır. Bu amilə uyğun olaraq da respublikamızda gənclərin vətənpərvərlik tərbiyəsi istiqamətində həyata keçirilən tədbirlərdə yeniyetmə və gənclərin hərbi hissələrdə görüşlərinin keçirilməsi, onlara qəhrəmanlıq tariximiz haqqında bədii və sənədli filmlərin nümayiş olunması, müharibə iştirakçıları ilə birgə tədbirlərin həyata keçirilməsi daim diqqət mərkəzində saxlanılmalıdır: "Məlum məsələdir ki, Azərbaycan gəncləri ordunun əsas şəxsi heyətini təşkil edir. Bu heyət vətənpərvər olduqda ordunun gücünə, onun məğlubedilməz olmasına şübhə yaranmır. Heç şübhəsiz ki, Azərbaycan Ordusunun adının dünyanın ən güclü ordular sırasında çəkilməsi gənclərin vətənpərvərlik hissinin artmasında əhəmiyyətli rol oynayır. Ötən il oktyabrın 17-də Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsinin 25-ci ildönümünə həsr olunmuş mərasimdə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev çıxışı zamanı son 25 illik zaman ərzində ölkəmizin qazandığı uğurlara, həmçinin ordu quruculuğunda qazanılan nailiyyətlərə diqqət yetirmişdi. Ölkə başçısı qeyd etmişdi ki, biz ordu quruculuğu istiqamətində böyük addımlar atmışıq: "Bu gün beynəlxalq ekspertlər də qeyd edirlər ki, Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Biz bunu bilirdik, ancaq bu gün bütün dünya bilir. Bu ilin aprelində təmas xəttində baş vermiş hadisələr Azərbaycan Ordusunun gücünü bir daha göstərdi. Bizim ordumuz əks-hücum əməliyyatı keçirərək Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini işğalçılardan azad etdi. Orada indi Azərbaycan bayrağı dalğalanır. Bu, bizim gücümüzü göstərir. Biz gücümüzü bilirik, gücümüzə əminik və düşmənin istənilən hədəfini məhv edə bilərik..."

Yaşadığımız müstəqillik dönəminə nəzər yetirəndə çox da böyük olmayan bir zamanda - 26 illik bir dövrdə müstəqilliyimizin qorunub möhkəmləndirilməsi üçün bütün sahələrdə xeyli işlər görüldüyünə əmin oluruq. Artıq nəinki beynəlxalq ekspertlər, hətta işğalçı dövlətin analitikləri də obyektiv mövqedən çıxış edərək Azərbaycanın ötən dövrdə ordu quruculuğunda da mühüm uğurlara imza atdığını etiraf edirlər. Əgər 2016-cı ilin Aprel döyüşləri düşmən ordusunun məğlubedilməzliyi haqqında ermənilərin illərdən bəri yaratdığı mifi darmadağın etdisə, Azərbaycanın da yetərincə hərbi gücə malik olduğunu təsdiqlədi: "Bu isə ona dəlalət edir ki, artıq Azərbaycanda peşəkar, yüksək döyüş və mənəvi-psixoloji hazırlığa malik bir ordu formalaşıb. Məhz bu amil gənclərin vətənpərvərlik hissinin artmasına təkan verir. Vaxtilə bir sıra Azərbaycan gənci orduda xidmət etməkdən ən müxtəlif vasitələrlə yayınırdı. İndi isə hər bir Azərbaycan gənci orduda xidmət etməkdən qürur duyur. Bunu özünün şərəf borcu hesab edir. Əslində hər bir gənc bilməlidir ki, Azərbaycan torpağı müqəddəs torpaqdır. Bu torpağa qanı tökülən igidlərin yazdıqları tarix və etdikləri igidliklər Azərbaycanın müqəddəs torpağını daha da ulu etmişdir. Şəhidlər üçün yazılan hekayətlər həm də gələcək nəsillər üçün ibrət dərsidir. Qoy onlar xeyiri şərdən, ağı qaradan ayıra bilsinlər. Gənclərimiz anlamalıdır ki, Vətən yolunda şəhidlik əsl vətəndaşlığın ən ali zirvəsidir; bütün zirvələrdən yüksəkdə duran ilahi bir zirvə, həm də o, adi gözlə yox, yalnız mənəvi gözlə görülə biləcək bir zirvədir". Onun sözlərinə görə, sözün əsil mənasında son bir neçə ildə Ali Baş Komandanın rəhbərliyi ilə hərbi hissələrimizdə həyata keçirilən irimiqyaslı islahatlar, görülən tədbirlər öz bəhrəsini verib: "Bu gün Azərbaycan Ordusunun adı güclü ordular sırasında çəkilir. Buna zəmin yaradan başlıca səbəblərdən biri də ölkəmizin iqtisadi qüdrətinin artmasıdır. Təsadüfi deyilməyib ki, iqtisadiyyatı güclü olan dövlətin ordusu da güclüdür. Son illər Müdafiə Nazirliyində çox dəyərli bir ənənə formalaşıb. Nazirliyin rəhbərliyi mütəmadi olaraq bayram günlərini ön xətdə döyüş növbətçiliyi aparan şəxsi heyətlə birgə keçirir. Nazir əsgərlə bir süfrədə əyləşir, əsgərlə duz-çörək kəsir. Bu adi bir hadisə deyil, şəxsi heyətin ruh yüksəkliyində belə tədbirlərin əhəmiyyəti böyükdür. Döyüş növbətçiliyində dayanan əsgərlərlə nazirin səmimi söhbəti, şübhəsiz, şəxsi heyətə güclü inam və etibar hissi aşılayır. Bu isə gənclər arasında vətənpərvərlik ideyasının təbliğində əhəmiyyətli amil hesab olunur".

***ALİM***

**Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyilə ABUİB-in həyata keçirdiyi "Azərbaycançılıq və hərbi vətənpərvərlik ideyalarının təbliği" layihəsi çərçivəsində çap olunur.**

# Hacı Zeynalabdin Tağıyevin heykəlinin hazırlanması ilə bağlı müsabiqənin müddəti uzadıldı

**Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti və Heydər Əliyev Fondunun Hacı Zeynalabdin Tağıyevin heykəlinin hazırlanması ilə bağlı elan etdiyi açıq heykəltəraşlıq müsabiqəsinə layihələrin qəbul müddəti avqustun 31-dək uzadılıb.**



Fondun Mətbuat xidmətindən "Trend"ə verilən məlumata görə, bu barədə qərar Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının rektoru, akademik Ömər Eldarovun Heydər Əliyev Fonduna 27 iyun 2019-cu il tarixli məktubu və bir sıra heykəltəraşların müraciətlərinə əsasən qəbul olunub. Müraciətlərdə eskizlər üzərində işin başa çatdırılması baxımından müsabiqənin müddətinin uzadılması xahiş edilib.

Qeyd edək ki, Hacı Zeynalabdin Tağıyevin heykəlinin "İçərişəhər" metrostansiyası yaxınlığındakı meydançada (İstiqlaliyyət küçəsi) ucaldılması nəzərdə tutulur.

## ELAN

09.07.2019-cu il tarixindən etibarən "Nar"ın korporativ tariflərində dəyişikliklər olacaq. Daha ətraflı məlumatı www.nar.az saytından əldə edə bilərsiniz.

## "Nar"ın 4G şəbəkəsi artıq Ağdam, Füzuli və Goranboyda!

**Daha geniş əhali kütləsini yüksək keyfiyyətli şəbəkə ilə təmin etməyi hədəfləyən "Nar" mobil baza stansiyalarının sayını artırmağa davam edir.**

Belə ki, mobil operator ilk yarımildə ölkə ərazisində 50-dən çox 3G və 380-dən çox yeni 4G mobil baza stansiyasını istifadəyə verib. Bununla da "Nar" 3G şəbəkəsi ölkə əhalisinin 97.6 %-ni, 4G şəbəkəsi isə əhalinin 70 %-ni əhatə edir. Qeyd edək ki, mobil operator Ağdam, Füzuli, Goranboy və Samux rayonlarında ilk dördüncü nəsil LTE texnologiyasına əsaslanan baza stansiyalarını quraşdırıb.

"Nar" ölkə boyu yeni baza stansiyaları quraşdırmaqla yanaşı, əvvəl quraşdırdığı baza stansiyalarını daim yeniləyir. Aparılan şəbəkə təkmilləşmə işlərinin nəticəsi olaraq, 45-dən artıq 4G baza stansiyasında avadanlıqlar yenilənib. Bundan başqa, mobil operator baza stansiyalarının şəbəkə tutumunu da genişləndirib.

"Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97 %-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7500-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir. 4G keyfiyyəti ilə yanaşı, "Nar"ın təklif etdiyi sərfəli qiymətlər abunəçilərin mobil internetdən daha çox istifadəsinə şərait yaradır.

Mobil operatorun şəbəkəsi haqqında ətraflı məlumatı nar.az saytından əldə edə bilərsiniz.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib."Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən, "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub. Sınaqları test xidmətləri üzrə müstəqil beynəlxalq şirkət olan "P3 Communications" keçirib və sınaq metodologiyası əhatəli xidmətlər üzrə müştəri təcrübəsinə əsaslanıb.

# Taksilərdə naviqatorların nasaz işləməsinin səbəbləri barədə maraqlı şayiələr dolaşır...

**"Odur bax, taksi, min, get!" - bu məşhur ifadə "Əhməd haradadır" filmində rəhmətlik Əliağa Ağayevin kiçik fraqmentdə yaratdığı tarixi səhnədir. Bu gün "odur bax, taksi, min, get!" demək asan olsa da, ölkədə göbələk kimi sürətlə çoxalan taksi şirkətləri müştərilərin baş bəlasına çevrilib.**




## *Ərşad Hüseynov: "...cihazın sürücülər tərəfindən düzgün quraşdırılmamasıdır"*

Qeyd etdiyimiz kimi, bu gün taksi şirkətlərinin sayı günü-gündən artır. Şəxsi avtomobili olan şəxs hansısa taksi şirkətinə müraciət edərək, müəyyən razılaşma əsasında həmin şirkətdə sürücü kimi fəaliyyət göstərməyə başlayır. Ancaq sürücü kimi çalışanların əksəriyyəti şəhərin küçələrini tanımır. Deyilən ünvanı tapmaqda çətinlik çəkən sürücülər çarəni naviqator deyilən qurğuda tapırlar.

Qeyd edək ki, əvvəllər hər hansı bir ünvana gedərkən, deyilən yeri tapmaqda çətinlik çəkən şəxs kömək üçün həmin ərazidən keçən şəxsdən və ya dükan sahibindən soruşardı. Yeni əsrin yeni ixtirası olan naviqator qurğuları həyatımıza bu mənada rahatlıq gətirir. Qəribə səslənsə də deyək ki, hazırda bir çox sahədə istifadə olunan naviqatorlar, bir növ, keçmişin taksi sürücülərinin, mağaza satıcılarının "vəzifəsini" yerinə yetirir. Beləliklə, naviqatorlara güvənən, şəhəri tanımayan avtomobil sahibləri taksi şirkətlərində çalışaraq əhaliyə xidmət göstərməyə başlayırlar.

Bəzən elə hal olur ki, hansısa ünvana getmək üçün naviqator ara məhəllələrlə yolun gedilməsini göstərir.

Qeyd edək ki, tək şirkət taksiləri deyil, fərdi şəkildə taksi xidməti ilə məşğul olanlar da naviqator xidmətindən istifadə edirlər. Belə bir fikir var ki, fərdi taksi kimi fəaliyyət göstərənlər müştəridən artıq pul əldə etmək üçün naviqatoru uzun məsafəyə proqramlaşdırıblar. Müştəri etiraz edərsə, sürücü naviqatorun göstərdiyi istiqamət üzrə hərəkət etdiyini deyir.

Bəzi hallarda isə müştəri evinə, iş yerinə taksi sifariş edir, amma sürücü verilən ünvanın naviqatorda görünmədiyini deyərək, uzağa gedib çıxır. Bəzən dəqiqələrlə taksi sürücüsünə yeri başa salmaq lazım gəlir ki, bu da əlavə əsəb deməkdir.

Maraqlıdır, taksi şirkətləri yolları tam tanımayan sürücüləri işə necə götürürlər?

*"Bu gün şəhərin yollarını tanımayan, avtomobili olan şəxs müəyyən razılaşma ilə taksi şirkətində sürücü kimi çalışmağa başlayır"*

**Nəqliyyat məsələləri üzrə ekspert Ərşad Hüseynov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, qanunvericilikdə taksi şirkətlərinin sürücüləri işə qəbul edərkən onlar üçün təlim təşkil etməsi göstərilib.** Bildirilir ki, hər bir şirkət taksi sürücüsü kimi götürdüyü şəxsin həm mənəvi, həm fiziki xüsusiyyətlərini nəzərə almalıdır: "Ən azı bilməlidir işçi qəbul edəndə kimi qəbul edir. Bundan başqa, sözügedən qanunvericilikdə o da qeyd olunub ki, işə qəbul edilməmişdən əvvəl sürücü sərnişinlərlə etik davranış qaydaları, ərazinin küçə-yol şəbəkəsini tanımaqla bağlı xüsusi kurs keçməlidir. Bundan başqa, şirkət işçiləri də onları təlimatlandırmalıdırlar. Sürücü sükan arxasına əyləşməzdən öncə nələrin etik normalara uyğun olmadığını yaxşı bilməlidir. Məsələn, dünyanın hər yerində sürücülərə təlimat verilir ki, sərnişinlərlə artıq ünsiyyət qurmasınlar. Ünsiyyət sadəcə belə ola bilər: Hara gedirsiniz? Harada dayanım? Məbləğ nə qədərdir? Düzdür, əlavə danışıq qadağan deyil, ancaq məsləhət də deyil. Sürücülərin yolu yaxşı tanıması üçün onlar üçün təlimlər təşkil olunmalıdır. Ancaq bu gün avtomobili olan şəxs müəyyən razılaşma ilə taksi şirkətində sürücü kimi çalışmağa başlayır".

Həmsöhbətimiz onu da vurğuladı ki, bəzi hallarda naviqatorların yolu düzgün tarif etməməsinin səbəbi cihazın sürücülər tərəfindən düzgün quraşdırılmamasıdır.

*Günel CƏLİLOVA*

# Bakıda itlər üçün açılan gözəllik salonlarında manikür, pedikür, tatu və sair xidmətlər göstərilir...

**İtlərin gözəllik salonları haqqında əvvəllər az-az eşitsək də, son zamanlar bu cür salonlara tez-tez rast gəlinir. Əsasən Bakının mərkəzində fəaliyyət göstərən bu salonlarda paytaxtın sahibli itləri süsləndirilir, bəzədilir.**



## *Yolçu Xanvəli: "İtlərin gözəllik salonlarına aparılmasından əvvəl onların müalicə edilməsi daha məqsədəuyğundur"*

## *Kəmalə Əliyeva: "İt sahibləri itlərinin daha gözəl və baxımlı olmasını istəyirlər"*

Bu gün Azərbaycanda itlər üçün gözəllik salonlarına tələbat böyükdür. Hətta deyilənə görə, it sahibləri bu salonlara düşmək üçün bəzən günlərlə gözləyirlər. Bir sözlə, itlər üçün salonlarda növbələrin yarandığı qeyd edilir.

Dünyanın bir çox iri şəhərində olduğu kimi, Azərbaycanda da it həvəskarlarının, kinoloqların sayı günbəgün artır. Hazırda evində müxtəlif it cinsləri saxlayan, hətta bəzən ona övladından, valideynindən artıq qayğı bəsləyənlər kifayət qədərdir.

Hazırda it sahiblərinin çoxu istəyir ki, evində saxladığı it təmiz və bəzəkli olsun. İtlər üçün gözəllik salonlarından bildirirlər ki, salonlara müraciət edənlər itlərinin- "sevimliləri"nin daha baxımlı olmasını istəyirlər. Məlumatlara görə, müştərilər salonlara daha çox itlərinin saçını rəngləməyə gəlirlər. Bundan əlavə, salonda heyvanlar üçün müxtəlif bəzək əşyaları və geyimlər də təqdim olunur. Ən çox müraciətlər isə Şi tsu cins itləri ilə bağlıdır. İtlərə bu salonlarda manikür, pedikür xidmətləri göstərilməklə yanaşı, onların qaşlarını tatu da edirlər. Salonlarda itləri çimizdirib darayırlar, hətta tüklərini boyayıb, dırnaqlarına rəng də çəkirlər.

Burada işləyənlər özlərinin ifrat it sevgisi ilə seçilənlərdir. Onlar qeyd edirlər ki, insan itləri sevməsə, heç zaman itlərə belə xidmət göstərə bilməz.

Bu gün itlər üçün gözəllik salonlarına əsasən imkanlı ailələrin və şou-biznesçilərin itləri gətirilir. Məlumatlara görə, müğənnilərdən Almaz Ələsgərli, Röya, Nura Surinin iti də bu cür salonlarda tez-tez görsənir. Bundan başqa, Azərbaycan yığmasında oynayan voleybolçu Adina Bayramovanın, fotoqraf Orxan Aslanovun, DJ Samın, müğənni Çingiz Mustafayev və başqalarının itləri bu kimi salonlara gətirilir.

İtlər üçün gözəllik salonlarının sahibləri bildirirlər ki, bu məkanların təmizliyi, burada gigiyenik qaydalara əməl olunması məşhurları bura cəlb edir.

Salonlarda itlər üçün müxtəlif formada geyimlərin də satıldığı məlumdur. İtlərə göstərilən xidmətin haqqı itlərin parodasından asılı olaraq dəyişir.

Belə salonlardan birində işləyən Kəmalə Əliyevanın bildirdiyinə görə, qiymətlər itin vəziyyətindən və parodasından asılıdır. Elə vaxt olur ki, it salona səliqəli gəlir, bəzən isə pis vəziyyətdə. Qiymətlər buna görə müxtəlifdir. "İtlər üçün gözəllik salonlarına müraciət edənlər çoxdur və it sahibləri itlərinin daha gözəl və baxımlı olmasını istəyirlər. Məsələn, "Yorkshire Terrier"i götürək, onun tüklərinin daranması, kəsilməsi, gözlərinin və qulaqlarının təmizlənməsi, dırnaqların kəsilməsi, parfüm vurulması, bantik taxılması 45-55 manat edir. Eyni zamanda, istəkdən asılı olaraq, biz itlərin tüklərinə rəng də qoyuruq, qulaqlarına sırğa vururuq. Bundan əlavə, itlərə tatu edirik, müştərilərin zövqünə uyğun itlərin dırnaqlarını boyayırıq".

Salonlara daha çox "Yorkshire Terrier" və "Şpitsi" gətiririldiyini deyən salon əməkdaşının sözlərinə görə, "Ovçarka", "Çoban iti" , "golden rentriver", "rotveyler", "xaski", "akita inu" və s. it cinslərinə də salonda rast gəlmək olur.

İtlərə xidmət göstərən alətlərə gəlincə, bunların xüsusilə itlər üçün olduğu qeyd edilir. Son zamanlar itlər nəinki gözəllik salonlarına gedir, hətta onlar arasında gözəllik müsabiqələri də təşkil edilir.

İtlər üçün gözəllik salonlarının fəaliyyət göstərməsi çoxlarında təəccüb yaratsa da, bəzilərin bunu təqdir edirlər.

Ekspertlərin fikrincə, itlər üçün gözəllik salonlarında sanitar qaydaların qorunması vacib şərtdir. Bəzi mütəxəssislər qeyd edirlər ki, itləri gözəllik salonlarına aparan sahibləri onları tez-tez baytar yanına aparsalar daha yaxşı olar. Bəzi itlərin, ümumiyyətlə, baytar xidmətindən yararlanmadığını, müayinəyə və müalicəyə cəlb edilmədiyini deyən mütəxəssislərin sözlərinə görə, bu da həmin itlərin salonlar üçün təhlükə yaratmasına səbəb olur.

**Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin İnformasiya təminatı, ictimaiyyətlə əlaqələr və beynəlxalq əməkdaşlıq şöbəsinin baş məsləhətçisi Yolçu Xanvəli də "Bakı-Xəbər"ə bildirdi ki, itlərin gözəllik salonlarına aparılmasından daha vacib olanı onların baytar yanına aparılması, həkim müayinəsindən keçirilməsidir.** "İtlərin gözəllik salonlarına aparılmasından əvvəl onların müalicə edilməsi daha məqsədəuyğundur. Əvvəlcə sahibli itlər həkim nəzarətindən keçməli və sahibi əmin olmalıdır ki, onun itində quduzluq, qurd, gənə və s. yoxdur, onda o, itini həmin salona aparmalıdır. Bəzən görürsən ki, heyvanda hər hansı bir xəstəlik olur və o heyvanın xəstəliyi başqa heyvanlar üçün də təhlükə yaradır. İt sahibləri Aqrar Xidmətə müraciət etməli, itini qeydiyyata aldırmalı, onu müayinədən keçirməli, xəstəliyi varsa müalicə etdirməlidirlər. Aqrar Xidmətdə 250 mindən çox sahibli it qeydiyyatdan keçib. Onların 235 mininə müxtəlif xəstəliklərə qarşı vaksinlər vurulub. Hesab edirəm ki, itin gözəlliyindən öncə onun sağlamlığı əsas götürülməlidir" - deyə Y.Xanvəli qeyd etdi.

*İradə SARIYEVA*

№ 113 (4011) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

29-01 İYUN-İYUL 2019-cu il

www.baki-xeber.com

## "Azercell"in dәstәyilә keçirilәn "Seedstars Baku 2019" müsabiqәsinin qalibi bәlli oldu

**"Azercell Telekom" MMC-nin dәstәyi vә Barama İnnovasiya vә Sahibkarlıq Mәrkәzinin tәşkilatçılığı ilә 15-16 iyun tarixlәrindә startaplar arasında keçirilәn "Seedstars World" müsabiqәsinin yerli seçimlәri baş tutdu.**



"Hyatt Regency" otelindә tәşkil olunan yarışmada münsiflәr heyәti qarşısında öz layihәlәrini tәqdim etmәk üçün dәvәt olunan 7 startap sırasından "Wexplain" qalib seçildi.

Mәlumat üçün bildirәk ki, "Wexplain" qәrarlar qәbul olunması vә ya mәlumat mübadilәsi üçün toplantı tәşkil etmәk ehtiyacını azaldacaq yeni qurulmuş onlayn bir platformadır. Tәklif etdiyi innovativ vә davamlı hәll sayәsindә qalib gәlmәyә müvәffәq olan bu startap Azәrbaycanı 2019-cu ilin dekabr ayında Qazaxıstanda keçirilәcәk "Seedstars CEE" regional sammitindә tәmsil etmәklә yanaşı, bütün xәrclәr qarşılanmaqla, 2020-ci ilin aprel ayında İsveçrәdә baş tutacaq "Seedstars World" yarışmasına qatılmaq, bunula da "Seedstars Global Winner" adı vә 500 000 ABŞ dolları dәyәrindә sәrmayә yatırımı qazanmaq uğrunda mübarizә aparacaq.

Tibb elmlәri sahәsindә araşdırmalarla mәşğul olan şәxslәr üçün dәrmanların tәftiş mәlumatlarını strukturlaşmış formaya salaraq, statistikanın aparılmasında yardımçı olan tәtbiq tәklif edәn "APDVoice" müsabiqәdә ikinci yerә layiq görüldü. Əşyaların İnterneti (IoT) texnologiyasına әsaslanan ağıllı tullantı toplanması sistemini tәklif edәn "WASCO" startapı isә üçüncü pillәdә qәrarlaşdı. Mәlumat üçün bildirәk ki, "Eleven Kings", "Owbike", "Real English" vә "Senmur" yarışa dәvәt olunan startaplar sırasında idi.

Qeyd edәk ki, "Seedstars" inkişaf etmәkdә olan ölkәlәrdә regional mәsәlәlәrin hәllini hәdәflәyәn, onların regional bizneslәrinә vә inkişafına dәstәk vermәk mәqsәdilә qlobal bazar üçün gәlirli vә davamlı mәhsullar hazırlayan bacarıqlı startaplar axtarışındadır. "Azercell Telekom" MMC vә "PAŞA Bank"ın dәstәyilә informasiya texnologiyaları sahәsindә fәaliyyәt göstәrәn layihәlәrin, yaranmaqda olan startapların müstәqil şirkәt kimi inkişaf etmәsinә kömәk edәn Barama İnnovasiya vә Sahibkarlıq Mәrkәzi artıq 7 ildir "Seedstars Baku" müsabiqәsinin yerli tәşkilatçısı qismindә çıxış edir.

Daha әtraflı mәlumat üçün news@mcs.az ünvanına müraciәt edә bilәrsiniz.

## Elan

Mәhәrrәmov İzzәt Elman oğluna Azәrbaycan Dövlәt İqtisad Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Əsәdov Mahir Nadir oğlunun adına, Abşeron rayonu, Xırdalan qәsәbәsi, 27-ci mәhәllә, ev №2, mәnzil 37 ünvanının qeydiyyat vәsiqәsi (çıxarışı) itdiyi üçün etibarsız sayılır.

Ağayeva Nazәnin Mahir qızına Azәrbaycan Dövlәt İqtisad Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Allahverdiyev Veysәl Cavad oğlunun adına, Abşeron rayonu, Donuzkökәltmә sovxozu 108 saylı әmrilә 0,08 ha (8 sot) qәrarı vә reyestr nömrә 6950, inventar nömrәsi 28 olan qeydiyyat vәsiqәsi itdiyi üçün etibarsız sayılır.

ulduzum

## "Bakcell" şirkәtinin "Ulduzum" proqramının partnyor sayı 300-ü keçib

**Azәrbaycanın ilk mobil operatoru vә әn sürәtli mobil internet provayderi "Bakcell" şirkәti böyük mәmnuniyyәtlә elan edir ki, şirkәtin "Ulduzum" loyallıq proqramı çәrçivәsindә abunәçilәrә endirim vә әlavә fürsәtlәr tәqdim edәn partnyorların sayı 300-ü keçib.**

Qeyd edәk ki, öz abunәçilәrini eksklüziv endirim vә üstünlüklәrlә tәmin etmәk mәqsәdilә "Bakcell" ölkәnin әn genişmiqyaslı loyallıq proqramlarından birini hәyata keçirir. "Ulduzum" proqramı artıq 300-dәn çox tәrәfdaş vasitәsilә "Bakcell" abunәçilәrinә 500-dәn artıq satış vә xidmәt nöqtәsindә yüzlәrlә maraqlı tәklifdәn yararlanmaq imkanı yaradır. Proqramın geniş partnyor şәbәkәsinә populyar restoranlar vә geyim dükanları, aparıcı kinoteatrlar, elektronika dükanları, tibbi, gözәllik, idman vә әylәncә mәrkәzlәri, banklar, kabel televiziyaları, taksi vә beynәlxalq çatdırılma xidmәtlәri vә hәtta aviaşirkәtlәr daxildir.

"Bakcell" 2 il bundan әvvәl özünün "Ulduzum" loyallıq proqramının partnyor siyahısına Türk Hava Yollarının "Miles & Smiles" proqramını daxil edәn ilk şirkәtlәrdәn olub. Belә ki, "Ulduzum" istifadәçilәri mobil rabitә xidmәtlәrinә xәrclәnәn hәr 1 manata 3 milә qәdәr qazanmaq imkanına malikdirlәr.

"Bakcell" şirkәtinin hәyata keçirdiyi "Ulduzum" loyallıq proqramının әsas mәqsәdi abunәçilәrә tәkcә endirim vә üstünlüklәr tәqdim etmәk yox, onların gündәlik hәyatına rahatlıq gәtirmәk, eyni zamanda, loyallıq, etibar vә şәffaflıq üzәrindә qurulmuş münasibәtlәri möhkәmlәndirmәkdir.

Hәr bir "Bakcell" abunәçisi "Ulduzum" proqramından yararlana bilәr. Xüsusi tәklif vә eksklüziv endirimlәrdәn faydalanmaq üçün abunәçi xüsusi mobil tәtbiqetmә vasitәsilә, telefonda *5555#YES kodunu yığmaqla vә yaxud * işarәsini 5555 nömrәsinә SMS vasitәsilә göndәrmәklә "Ulduzum" kodunu әldә etmәlidir. Əldә olunmuş kod alış-veriş vә yaxud xidmәtlәrin ödәnilmәsi zamanı tәqdim edilmәlidir. Proqram barәdә әtraflı mәlumat üçün www.ulduzum.az sәhifәsinә daxil olun.

## Ayıların parçaladığı şәxs bir ay sonra mağaradan sağ tapıldı

**Rusiyanın Tuva bölgәsindә dәhşәtli hadisә baş verib. "Ölkә.az" bildirir ki, ayıların hücumuna mәruz qalan şәxs bir ay sonra ov köpәklәri tәrәfindәn mağarada tapılıb.**

"The Siberian Times" qәzetinin xәbәrinә әsasәn, ov tulalarının dayanmadan hürmәsi vә bir nöqtәni tәrk etmәmәsi ovçuların mağarına sәbәb olub. Ovçular mağaraya girәndә dәhşәtli mәnzәrә ilә rastlaşıblar. Yaşayıb-yaşamadığı bilinmәyәn bir şәxs yerdә uzanılı vәziyyәtdә olub. O, sadәcә adının Aleksandr olduğunu deyә bilib. Ovçular onu dәrhal xәstәxanaya çatdırıblar. İlk müayinәdәn sonra Aleksandrın ayı ilә mübarizәsindә onurğasının qırıldığı mәlum olub.

Aleksandr bildirib ki, ayı onu sonra yemәk üçün mağarada gizlәdib. O isә sağ qala bilmәk üçün öz sidiyini içib. Hәkimlәr Aleksandrın sağ qalmasını möcüzә hesab edirlәr. Artıq müalicә olunan Aleksandr qollarını tәrpәdә bilir.





**Qoç** - Ən adi, rutin mәsәlәlәrin hәllindә ekstravaqant çözüm yollarından yararlansanız, problemlәrin öhdәsindәn gәlәcәksiniz. Maliyyә mәsәlәlәri, sәrmayә layihәlәri üçün әlverişli zamandır.



**Buğa** - Qarışıq, mürәkkәb zamandır. Astagәl olmayın, sürәtlә hәrәkәt edin. Xәbәrlәri dinlәyin, gәlәn mәlumatları saf-çürük edin, hadisәlәrә tәsir imkanlarına malik insanlarla görüşün.



**Əkizlәr** - Yorucu, usandırıcı, rutin işlәrlә dolu gündür. Yaxın әtrafınızdakı insanlar sizinlә bağlı bәlli gözlәntilәrә malikdirlәr. İşlәrin öhdәsindәn gәlә bilmәdiyinizi anlayırsınızsa, dostlara yardım üçün müraciәt edin.



**Xәrçәng** - Ətrafınızdakı vurnuxmanın adi elementinә çevrilmәyin. Plan çәrçivәsindә hәrәkәt edin. Öhdәlik vә vәdlәrinizi unutmayın. Etibar etdiyiniz insanların gözlәntilәrini aldatmayın.



**Şir** - Ehtiyatlı olun. Sizi iradәnizә zidd olaraq avantüraya cәlb edә bilәrlәr. Pullarınızı yanlış yatırma riski var. Sәrfәli olmayan alışlar etmәyin. Gәrәkli işlә mәşğul olun. Ciddi qüvvә vә vaxt alan mәhğuliyyәti unudun.



**Qız** - Yaşamın müәyyәn tәfәrrüatlarına diqqәt yetirin. Narahatlıq, uğursuz şәrtlәr istisna deyil. İşgüzar aktivliyiniz ifrata varmamalıdır. Bir müddәt fasilә edin. Yaxın gәlәcәklә bağlı planlarda dәyişikliklәr zamanıdır.



**Tәrәzi** - Xәrclәrinizi artırmayın. Yaxınlarınızdan qayğınızı әsirgәmәyin. Sürәtlә inkişaf edәn prosesi donuq nәzәrlәrlә seyr etmәyin. Dәyәr verdiyiniz insanın maraqlarını nәzәrә alın. Yaxşılıq müqabilindә heç nә gözlәmәyin.



**Əqrәb** - İstәdiyinizdәn artıq vaxtı ünsiyyәtә sәrf etmәli olacaqsınız. Qarşılıqlı әlaqәlәrin, tәmasların bir neçә kanalını nәzarәtdә saxlayın. Yaxın әtrafınızdakı insanların sizinlә bağlı ifrat gözlәntilәri var.



**Oxatan** - Günün ilk yarısında yaşananları laqeyd, süst şәkildә seyr etmәyin. Aktiv olun, әtrafınızdakı insanlara fikir verin. Dәyәr verdiyiniz şәxsә tәzyiq göstәrmәyә çalışmayın.



**Oğlaq** - İstәklәrinizә nәzarәt edin. Praktik olun, durumu normal qiymәtlәndirin. Alış-veriş üçün әlverişli zaman deyil. Bir müddәt sonra cazibәsini vә aktuallığını itirәcәk әşyaya çox pul vermәyin.



**Dolça** - Hәyәcan vә emosiyaların bol olacağı gündür. Artıq söz demәmәk üçün özünüzü әlә alın. Bәdxahlar, sizә qarşı mәkrli davranan rәqiblәr durumdan istifadә edә bilәrlәr. Ünsiyyәt çevrәsini yanlış seçmәyin.



**Balıqlar** - Dostlardan birinin davranışı vә sözlәri sizi tәәccüblәndirәcәk. Bu adam sizdәn faydalanmaq, vәziyyәtdәn sui-istifadә etmәk istәyir. İşdә hәmkarlarınızla normal davranın.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

## Süni intellekt pizza istehsalında istifadә edilәcәk

**Artıq hәyatımızın hәr sahәsindә özünün göstәrәn süni intellekt getdikcә daha da hәyatımıza inteqrasiya edilmәyә başladı.**

Süni intellekt indi dә pizza aşpazı rolunu boynuna götürdü vә әn yaxşı pizzanı etmәk üçün sәy göstәrir. "Deyerler.org" bildirir ki, süni intellekt ilә edә bilәcәyimiz bir çox möcüzәvi şey var, ancaq Massaçusets Texnologiya İnstitutunun (MIT) araşdırmaçıları üçün bunlar kifayәt deyil. Araşdırmaçılar PizzaGAN adlı süni intellekt layihәsindә, italyan mәtbәxinin әvәzolunmaz yemәyi, pizzanın üzәrinә süni intellekti buraxdılar vә bu müddәtdә, pizza istehsal üsullarının vә pizza bәzәmәlәrinin dә söz mövzusu olduğu çox araşdırdılar. "Bir pizza necә edilәr: Laya söykәnәn bir GAN modelinin öyrәnilmәsi" başlıqlı layihәnin mәqsәdi, bir maşına addım-addım edәcәklәri deyilәrәk necә pizza edәcәyini öyrәtmәkdir. GAN nәzarәt edilmәyәn maşın öyrәnmәsi üçün istifadә edilәn bir kompyuter elmi vә alqoritm qruplarıı budağıdır. PizzaGAN, "Instagram"dan әldә edilәn 9.213 pizza şәkillәrindәn faydalanır. Hәr şәkildә xәmir, sous vә pendir ayrıayrı tәyin olunaraq süni intellektә öyrәdilir. Süni intellekt әldә etdiyi tәsvirlәri öz-özünә birlәşdirәrәk әn gözәl pizzanı yaradır.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qәzet hәftәdә 5 dәfә çıxır. (Bazar vә bazar ertәsindәn başqa). «BZ»-dә çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.